Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

25 FEVRAL 2020-ci il

№ 34 (4165)

Qiymәti 40 qәpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «İTALİYA XRİSTİAN DƏYƏRLƏRİNİ QAZA SATDI» - İLHAM ƏLİYEVİN İTALİYA SƏFƏRİ ERMƏNİSTANI ƏN HƏSSAS YERDƏN VURDU...

■ səh. 5 ■

Azərbaycanın dövlət başçısının Roma Papası ilə sıx görüşləri - dövlətimizin beynəlxalq imicindən doğan faktor... ■ səh. 3 ■

Azərbaycanın Qərblə hərbi əməkdaşlığı Ermənistanda şok effekti yaradır - silahlanmamızda İtaliya təyyarələri... ■ səh. 9 ■

İtaliya ilə müdafiə və hərbi-texniki əməkdaşlığın başlanmasının Azərbaycan-Ermənistan güc balansına təsirləri... ■ səh. 4 ■

Bakı Dəniz Limanı ilə Genuya limanı saziş imzaladı - Azərbaycanın İtaliya ilə yeni strategiyası hərəkətə başladı ■ səh. 11 ■

Koronavirusla bağlı İrandan və Azərbaycandan ən yeni xəbərlər - nazirliklərimizdən təkzib, İranda virusun mənbəyi məşhur Qum imiş... ■ səh. 7 ■

İslam inqilabının 41 illik tarixində İranda seçici fəallığının ən aşağı olduğu seçki - nə baş verir... ■ səh. 10 ■




## Azərbaycanda koronavirusla bağlı yayılan səs yazılarının arxasında kütləvi təxribat motivi...

■ səh. 12 ■





İlham Əliyev Münhendə Paşinyanın «yandan çıxartma» tarix «faktlarını» yerə vurdu - Ermənistanın elm cəmiyyəti də susdu ■ səh. 6 ■

Ermənistanda kəskin «konstitusiya referendumu» qarşıdurması başlayır... ■ səh. 8 ■

Berlində izdihamlı Xocalı mitinqi erməniləri zəif əks addıma sövq etdi - Vyanadakı aksiyada ermənilərin payladığı kitabları yerə atanlar oldu ■ səh. 4 ■

■ səh. 2 ■ DİN koronavirusla bağlı sosial şəbəkədə yalan məlumat yayan şəxsi saxlamayıb... hələlik...



■ səh. 10 ■ 11 məntəqədə səsvermənin ləğv edildiyi dairədə ümumi nəticələrə təsir ehtimalı - 60-cı...



■ səh. 13 ■ Polisin qanunçuluğa və mental dəyərlərə uyğun daha bir addımı - Manaf Ağayevin polisə çağırılması zəruri idi...



■ səh. 14 ■ Rektorların və institut direktorlarının elmi iş rəhbəri olması praktikası doğrudurmu...



■ səh. 15 ■ İndiki şərtlərlə xaricdə oxumuş uzman həkimlərimizin rayon xəstəxanalarına getməsi problemi - Sığorta Agentliyinin rəhbərinin səyləri...





# Prezident İlham Əliyev Azərbaycan idmançılarının Olimpiya Oyunlarına hazırlığına dair sərəncam imzaladı

**Prezident İlham Əliyev Azərbaycan idmançılarının XXXII Yay Olimpiya Oyunlarına və XVI Yay Paralimpiya Oyunlarına hazırlığının və Oyunlarda iştirakının təmin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Olimpiya Oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən mühüm və möhtəşəm idman tədbiridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya hərəkatında iştirakı, onu təmsil edən idmançıların Olimpiya Oyunlarında göstərdikləri nəticələr ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir.

## Vasif Talıbov yenidən Naxçıvan Ali Məclisinə sədr seçildi



**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilib.**

"Trend"in məlumatına görə, toplantıda təşkilati məsələlərə baxılıb.

Sessiyanın gündəliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçilməsi, Ali Məclis Sədrinin müavinlərinin seçilməsi, Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi məsələlər olub. Sessiyada Vasif Talıbov yenidən Naxçıvan Ali Məclisinin sədri seçilib.

## Azərbaycan-Ermənistan sərhədində təxribat bir əsgərimizin şəhid olması ilə nəticələndi...

**Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində növbəti dəfə atəşkəs rejimini kobud şəkildə pozmaqla təxribat törədib.**



Dövlət Sərhəd Xidmətindən (DSX) "Trend"ə bildirilib ki, 2020-ci ilin 24 fevral tarixində saat 07:00 radələrində Ermənistan silahlı qüvvələrinin Noyemberyan rayonunun Koti kəndi yaxınlığında yerləşən bölmələrindən Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətindəki sərhəd döyüş məntəqəsinə diversiya cəhdinin qarşısı alınıb, ciddi itkilər verməyə məcbur olmuş düşmənin bir zabiti ağır yaralanıb, digər hərbi qulluqçusu öldürülüb. Düşmənin diversiya qrupunun qumbaraatan və digər iriçaplı silahların tətbiqi ilə baş verən təxribatının qarşısı alınarkən sərhədçi əsgər Vəliyev İbrahim Ələmşah oğlu qəhrəmancasına şəhid olub. Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində düşmən atəşindən dünyasını dəyişən əsgərin fotosu yayılıb. "Trend"in məlumatına görə, qəhrəmancasına şəhid olmuş Vəliyev İbrahim Ələmşah oğlunun şəkli yaxınları tərəfindən paylaşılıb.

## İran qonşu ölkələrlə sərhədlərini müvəqqəti bağlayıb




**İranın bəzi qonşu ölkələrlə sərhədlərinin bağlanması müvəqqətidir.**

"Trend"in məlumatına görə, bunu İranın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin müdiri Abbas Musəvi deyib. A.Musəvi bildirib ki, İran Xarici İşlər Nazirliyi səfirliklər vasitəsilə qonşu ölkələrin rəsmiləri ilə məsləhətləşmələr aparır və heç bir şübhəli halın sərhədlərdən keçməyəcəyi haqda onları arxayın edib: "Sərhədlərin müvəqqəti şəkildə bağlanması ticarət, idxal-ixraca mane olmamalıdır".

# Azərbaycanda koronavirus təhlükəsi yoxdur

*Nazirlər Kabineti ölkədə koronavirusa qarşı görülən tədbirlərlə bağlı məlumat yaydı*

**Nazirlər Kabineti koronavirus epidemiyasına qarşı görülən tədbirlərə dair məlumat yayıb. NK-dan "Trend"ə verilən xəbərə görə, məlumatda deyilir:**

"2020-ci il yanvarın 28-də Çin Xalq Respublikasında yayılmış koronavirusun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısını almaq məqsədilə Azərbaycan Respublikası Baş nazirinin sədrliyi ilə hökumət komissiyası yaradılıb, yanvarın 30-da epidemiyaya qarşı Fəaliyyət Planı təsdiqlənib.



Epidemiyanın təhlükəli miqyas almağa başladığı ilk gündən Azərbaycanın bütün sərhəd-keçid məntəqələrində, o cümlədən hava limanlarında profilaktik tədbirlər görülür. Həmin tarixdən başlayaraq bütün istiqamətlərdən Azərbaycana gələn sərnişinlər ciddi yoxlanır və bu günədək ölkəmizdə koronavirusa yoluxma halı qeydə alınmayıb.

Son günlər İran İslam Respublikasında koronavirusa yoluxma hallarının artmasına və bəzi hallarda ölümlə nəticələnməsinə dair rəsmi məlumatların yayılmasından sonra Azərbaycan-İran sərhəd-keçid məntəqələri xüsusi rejimdə fəaliyyətə keçib. Fevralın 22-dən başlayaraq sərhəd-keçid məntəqələrində sanitar-dezinfeksiya işləri aparılır. Bu səbəbdən, keçid prosedurlarının sürəti azalıb.

Azərbaycan ərazisindən tranzit yüklərin daşınması üzərində də nəzarət gücləndirilib. Yüklərin ölkəyə girişi və çıxışında əlavə sanitar-dezinfeksiya tədbirlərinin görülməsi davam etdirilir.

İran İslam Respublikasında yaranmış vəziyyətlə əlaqədar olaraq əhaliyə xüsusi zərurət olmadığı hallarda qonşu ölkəyə səfərlərini müvəqqəti olaraq təxirə salmaq tövsiyə olunur.

Azərbaycanda sanitar-epidemioloji vəziyyət xüsusi nəzarətdədir. Aidiyyəti qurumlara gücləndirilmiş rejimdə fəaliyyət göstərməyə dair tapşırıqlar verilib.

Ölkəmizin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan bütün tədbirlər görülür və narahatlıq üçün əsas yoxdur. Epidemiyadan qorunmaq üçün ölkəmizdə kifayət qədər tibbi ləvazimatlar var.

Koronavirus epidemiyası hazırda beynəlxalq miqyaslı təhlükə olduğu üçün bu barədə təxribat xarakterli dezinformasiyalar yayılması halları da müşahidə olunmaqdadır. Vətəndaşlardan xahiş edirik ki, yalnız rəsmi məlumatlara etibar etsinlər.

Zəruri hallarda ictimaiyyətə əlavə məlumat veriləcək".

# DİN koronavirusla bağlı sosial şəbəkədə yalan məlumat yayan şəxsi saxlamayıb... hələlik...

**Sosial şəbəkələrdə Bakıda Mərkəzi Klinik Xəstəxanada koronavirusla bağlı xəstələrin olması ilə bağlı şayiələr yayanlara qarşı tədbirlər görülür.**

Bu barədə "Trend"ə açıqlamasında Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin rəhbəri, polis polkovniki Ehsan Zahidov deyib.

O bildirib ki, həmin səs




yazıları yayan şəxslərlə bağlı araşdırmalar aparılır: "Sözsüz ki, bu məsələ cəmiyyətin həssas nöqtəsi olduğu üçün bütün qurumlar bununla bağlı ciddi tədbirlər görür. Bu məsələ ilə bağlı kimlərinsə şayiə xarakterli məlumat yayması, əhali arasında vahimə yaratması yolverilməzdir. Bununla əlaqədar lazımi profilaktik tədbirlər həyata keçirilir. Hələlik bu məsələ ilə bağlı saxlanılan yoxdur".

# Azərbaycanın dövlət başçısının Roma Papası ilə sıx görüşləri - dövlətimizin beynəlxalq imicindən doğan faktor...

**Tural İrfan:** *"Cənab Prezidentin apardığı siyasət nəticəsində ölkədəki tolerantlıq şəraitinin yüksək olması bu münasibətlərin təməlində dayanır"*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva İtaliyaya səfər zamanı Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olublar. Bildirilir ki, Heydər Əliyev Fondu tərəfindən hazırda Vatikanda bir neçə layihə həyata keçirilir.**

2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefi və Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsi Heydər Əliyev Fondunun maliyyə dəstəyilə bərpa edilir və artıq işlər başa çatmaq üzrədir. Bu işlərin bu ilin may ayında başa çatması planlaşdırılır. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən, hazırda "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası işləri aparılır və layihənin 2020-ci ildə başa çatması nəzərdə tutulur. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri Kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası" layihəsi çərçivəsində son tamamlama işləri yekunlaşıb.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr müqəddəs Taxt-Tacda çox yüksək qiymətləndirilir. Bu işlər Fondun ümumbəşəri dəyərlərə verdiyi töhfələri bütün dünyaya nümayiş etdirir. Bununla yanaşı, bu layihələr həm də ölkəmizin müxtəlif dinlərin abidələrinə və müqəddəs yerlərinə verdiyi önəmi göstərir. Bütün bunlar isə multikultural dəyərlərə sadiq və bu dəyərləri təşviq edən ölkə kimi Azərbaycanın dünyadakı mövqeyini və yerini, həmçinin, dinlərarası dialoqun qurulmasındakı rolunu möhkəmləndirir. Qeyd edək ki, Sikstin Kapellasının yerləşdiyi bina Vatikanda Renessans dövrü italyan incəsənətinin ən görkəmli abidələrindən biridir. 1481-1483-cü illərdə kapellanın divarlarına Musanın və İsanın həyatlarından səhnələr təsvir olunan freskalar çəkilib. XV əsrdə dünya şöhrətli italiyalı heykəltəraş Mikelancelo kapellanın tavanının və mehrab divarının rəsmlərini yaradıb. Bura həm də muzey kimi fəaliyyət göstərir.

Vatikandakı Müqəddəs Pyotr Kilsəsi italyan intibah memarlığının ən məşhur nümunələrindən və dünyanın ən böyük kilsələrindən biridir. Kilsədə ilk Roma Papası hesab edilən Müqəddəs Pyotr dəfn edilib. Bura həm də məşhur ziyarətgah və dini mərasimlər yeridir. Buna görə də erkən xristianlıq dövründən etibarən əksər Roma papaları burada dəfn olunub. Eyni zamanda,

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülüb. Birinci vitse-prezident Mehriban Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən, Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb. Ordeni Mehriban xanım Əliyevaya Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin təqdim edib.

Göründüyü kimi, ölkəmizi təmsil edən ali nümayəndə heyəti Katolik Kilsə tərəfindən çox yüksək səviyyədə qəbul edilib və onların əməyinə böyük diqqət göstərilib. Bu amilin Azərbaycanın beynəlxalq imici ilə hansı səviyyədə əlaqəsi var?

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə bildirdi ki, cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikanda səfərdə olması, Roma Papası ilə görüşləri hesab edirəm ki, həm dövlətimiz, həm də xalqımız üçün faydalı oldu: "Çünki Roma Papasının dünyadakı nüfuzu, xristian dünyasındakı rolu və təsiri məlumdur. H.Əliyev Fondunun prezidenti kimi Mehriban Əliyevanın kilsə və digər tarixi əhəmiyyətli abidələrin təmirində böyük rolu bu görüşlərin əhəmiyyətini artırır. Görüş əsnasında faydalı müzakirələrin Qarabağ məsələsinin həllinə də müsbət təsir edəcəyini istisna etmək olmaz. Azərbaycan müsəlman dövləti olmasına baxmayaraq, Roma Papası və Vatikan nəzdində bir çox xristian dövlətindən daha üstün hörmətə və diqqətə layiqdir. Şübhəsiz ki, cənab Prezidentin apardığı siyasət nəticəsində ölkədəki tolerantlıq şəraitinin yüksək olması bu münasibətlərin təməlində dayanır.

**Roma Papasının Azərbaycana müsbət münasibəti, şübhəsiz ki, Ermənistan rəhbərliyində ciddi narahatlıq yaradır. Bu narahatlıq həm qısqanclıqdan, həm də Qarabağ məsələsində erməni kilsəsi ilə o qədər arası olmayan Roma Papasının münasibətindən doğur. Şübhəsiz ki, bu görüş tarixi əhəmiyyətinə görə həm xalqımız, həm də dövlətimiz üçün böyük fayda kəsb edəcək. Belə görüşlər və münasibətlər Azərbaycanın dünyada yüksələn nüfuzunu daha da artırır. Nüfuzun artması da dövlətin güclənməsi və Qarabağ kimi münaqişə, problemin həllində dəstəkçilərin təsirinin həlledici olmasına gətirib çıxaracaq".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Berlində izdihamlı Xocalı mitinqi erməniləri zəif əks addıma sövq etdi - Vyanadakı aksiyada ermənilərin payladığı kitabları yerə atanlar oldu

**Məlum olduğu kimi, azərbaycanlılar fevralın 22-də Berlində Xocalı soyqırımı ilə bağlı möhtəşəm mitinq keçirdilər. Sözügedən mitinq çox uğurlu alındı. Bununla belə, eyni gündə ermənilər Avstriyanın paytaxtı Vyanada anti-Azərbaycan yürüş-mitinqini keçiriblər.**

*"Artıq Avropa ölkələrinin sakinləri əvvəlki kimi erməni yalanlarının təsiri altına düşmürlər"*

Tədbirdə Ermənistanın və Dağlıq Qarabağ separatçılarının "bayraqları" dalğalanıb. Erməni lobbisi Xocalı soyqırımının beynəlxalq aləmdə tanınmasının təsirini azaltmaq üçün "Bakıda və Sumqayıtda ermənilərin etnik təmizlənməsinin 30 illiyi" adı altında Vyanada aksiya keçirib. Ancaq sözügedən aksiya azərbaycanlıların Berlində keçirilən mitinqi ilə müqayisədə çox uğursuz olub.

Hər il Xocalı soyqırımı günü yaxınlaşdıqca, Azərbaycanda və bir sıra ölkələrdə anım tədbirləri keçirilir. Son illər onlarla ölkənin parlamentində Xocalı soyqırımı ilə bağlı sənədlər qəbul edilib. Bütün bunlar Ermənistanı və erməni lobbisini ciddi şəkildə narahat edir. Ona görə də Vyanada ermənilər sözügedən aksiyanı keçirdilər. Bunun üçün müxtəlif vasitələrə əl atdılar. Ancaq ermənilərin Vyanada keçirdikləri aksiya Avstrya vətəndaşları üçün maraqlı olmadı. Adətən ermənilər qondarma "erməni soyqırımı" ilə bağlı tədbirlər keçirirdilər. Bunun artıq dünya üçün maraqlı olmadığını görüb yeni metoda əl atıblar. Lakin onların bu metodu da effekt vermir. Məsələ ondadır ki, Vyanadaki aksiyada ermənilər özlərindən uydurduqları təbliğat xarakterli kitablar paylayıblar. Rusiya mətbuatının yazdığına görə, Vyana sakinləri üçün bu kitablar maraqlı olmayıb. Bir çoxu həmin kitabları yerə atıb.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bütün bunlar onu göstərir ki, ermənilər əvvəlki kimi dünya ölkələrini öz yalanlarına inandıra bilmirlər: "Onlar, bütövlükdə, Xocalı soyqırımının dünyada tanınmasından narahatdırlar.

## *Arzuxan Əlizadə: "Ermənilər narahatdırlar ki, proseslər bu gedişlə gedərsə, o zaman daha çox ölkə Xocalı həqiqətləri ilə tanış olacaq"*




Bəlli olduğu kimi, neçə ildir Azərbaycan bu istiqamətdə iş aparır. Dünyanın bir sıra ölkələrinin parlamentləri Xocalı soyqırımı ilə bağlı sənədlər qəbul edib. ABŞ-ın bəzi ştatlarının bununla bağlı qəbul etdiyə qərarlar var. Berlində də, məlum olduğu kimi, azərbaycanlılar böyük mitinq keçirdilər. Ermənilər narahatdırlar ki, proseslər bu gedişlə gedərsə, o zaman daha çox ölkə Xocalı həqiqətləri ilə tanış olacaq. O zaman kimlərin əsl soyqırıma məruz qalması dünya ictimaiyyətinə bəlli olacaq. Bu səbəbdən ermənilər Vyanada aksiya keçirməklə Xocalı həqiqətlərinin Avropada yayılmasını önləmək istədilər. Ancaq onların bu cəhdi alınmadı. Vyanada keçirdikləri qondarma aksiya azərbaycanlıların Berlindəki böyük Xocalı mitinqi ilə müqayisədə çox uğursuz təsir bağışladı. Belə məlum olur ki, artıq Avropa ölkələrinin sakinləri əvvəlki kimi erməni yalanlarının təsiri altına düşmürlər. Bu səbəbdən onlar öz xəbis məqsədlərinə bu dəfə çata bilmədilər".

***Vidadi ORDAHALLI***

# İtaliya ilə müdafiə və hərbi-texniki əməkdaşlığın başlanmasının Azərbaycan-Ermənistan güc balansına təsirləri...

**İtaliya ilə Azərbaycan arasında hərbi sənaye sahəsində əməkdaşlığa start verilir. Bunu Prezident İlham Əliyev Romada Azərbaycan-İtaliya biznes forumunda çıxışı zamanı deyib. Dövlət başçısının sözlərinə görə, hərbi sahədə əməkdaşlıq bir başlanğıcdır:**



"İmzalanmış sənədlər arasında birini xüsusi qeyd etmək istərdim. Bu, hərbi sənaye kompleksinə aiddir. Bu da bir başlanğıcdır. Bu günə qədər İtaliya ilə Azərbaycan arasında hərbi sənaye sahəsində əməkdaşlıq olmayıb. Ancaq imzalanmış memorandum əsasında bu əməkdaşlığa start verilir. Əminəm ki, bu ilin sonuna qədər bütün lazımi texniki və kommersiya şərtləri razılaşdırılacaq və beləliklə, biz hərbi sənaye sahəsində uğurla əməkdaşlıq edəcəyik".

Adətən, Avropa İttifaqının aparıcı dövlətləri Qarabağ münaqişəsi ilə əlaqədar bu sahədə Azərbaycanla əməkdaşlıq etməkdən yayınırlar. Ölkəmizə silah ixrac etmirlər. Bildirirlər ki, hərbi sahədə əməkdaşlıq münaqişə öz həllini tapandan sonra mümkün olacaq. Ancaq görünən odur ki, İtaliya kimi nüfuzlu bir ölkə bu maneəni aradan qaldırır. Nəzərə almaq lazımdır ki, İtaliya NATO blokunda çox vacib rola malikdir. ABŞ-ın bir sıra bazaları İtaliyada yerləşir. O baxımdan İtaliya ilə hərbi əməkdaşlıq Azərbaycan üçün nə deməkdir? Bunun Azərbaycan-Ermənistan hərbi güc balansına təsirlərini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, İtaliya ilə müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın qurulmasının Azərbaycan üçün çox böyük əhəmiyyəti var: "Azərbaycanın bir sıra aparıcı dövlətlərlə siyasi-hərbi əlaqələri genişləndirməsi önəmli məsələdir. Azərbaycan ərazisinə görə kiçik dövlətdir. Belə olan halda, İtaliya kimi NATO ölkəsi ilə hərbi əlaqələrin qurulması Azərbaycan üçün xüsusi önəm daşıyır. Bu təkcə hərbi baxımdan önəmli deyil. Bu həm də siyasi baxımdan bizim üçün önəmlidir. Çünki İtaliyanın Avropa İttifaqında və NATO-da xüsusi çəkisi var. Azərbaycan müstəqil siyasət yeritməsədi, İtaliya kimi inkişaf etmiş ölkə hərbi sahədə əməkdaşlıqda maraqlı olmazdı. İndiyə qədər Qərb dövlətləri hərbi sahədə Azərbaycanla əməkdaşlıqda çəkingənlik göstərirdilər. Söhbət Qərbi Avropa dövlətlərindən gedir. O baxımdan İtaliya bu sahədə əməkdaşlığa maraq göstərməklə yeni bir yol açır. Bu da, təbii ki, Ermənistanı bərk narahat edir. Onlar İtaliya kimi bir dövlətin Azərbaycanla hərbi sahədə əməkdaşlıq etməsini həzm edə bilmirlər. Düzdür, Azərbaycan Rusiya, İsrail, ABŞ və digər ölkələrlə hərbi sahədə əməkdaşlıq edir. Sözügedən ölkələrdən Azərbaycan modern silahlar əldə edir. Azərbaycan 30-dan artıq ölkə ilə hərbi sahədə müxtəlif əməkdaşlıq edir. Ancaq İtaliya kimi ölkə ilə bu sahədə əməkdaşlığın qurulması Azərbaycan üçün çox önəmlidir. Bunun sayəsində Azərbaycan həm də aparıcı ölkələrlə siyasi baxışlarını bölüşmək imkanı qazanır. Reallığı dünya ictimaiyyətinə çatdırmaq imkanı qazanır. Bu da indiki dövrdə Azərbaycan üçün çox böyük önəm kəsb edir. Məsələ ondadır ki, İtaliya sıradan bir ölkə deyil. O üzdən, bunun əhəmiyyəti böyükdür".

## *İbrahim Rüstəmli: "İtaliya kimi NATO ölkəsi ilə hərbi əlaqələrin qurulması Azərbaycan üçün xüsusi önəm daşıyır"*

*"Bu həm də siyasi baxımdan bizim üçün önəmlidir"*

***Vidadi ORDAHALLI***

# "İtaliya xristian dəyərlərini qaza satdı" - İlham Əliyevin İtaliya səfəri Ermənistanı ən həssas yerdən vurdu...

***Mübariz Əhmədoğlu:** "Paşinyanı heç Vatikanın həndəvərinə buraxmadılar"*

**Ermənistan Azərbaycanın dövlət rəhbərlərinin İtaliyaya reallaşan səfərinə və orada yüksək səviyyədə qəbul olunmasına olduqca sərt və narahatedici tonda reaksiya verib. Onların mətbuatında belə münasibətə görə İtaliyanı sərt qınayırlar.**



Hətta qeyd edilir ki, İtaliya Azərbaycanla olan kontaktları ilə xristian və demokratik dəyərlərini təbii qaz əldə etmək marağına dəyişib. Bu xüsusda erməni mediası öz ölkələrinin səhv xarici siyasət kursunu da tənqid edib. Hətta böyük bir təəccüblə İtaliyada 2020-ci ilin Azərbaycan mədəniyyəti ili kimi qeyd olunmasına da eyham edilir. Xüsusilə də Mehriban xanım Əliyevaya Vatikanın göstərdiyi böyük dəstəyə açıq qibtə edildiyi göz qabağındadır.

Hərbi və digər iqtisadi sahədə əldə edilən razılaşmalara görə də narahatlıq ifadə olunur. Ermənistanın bu dərəcədə aşırı qısqanclığını nə ilə izah edə bilərik?

Politoloq Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun bir neçə fundamental və sonradan yaranan səbəbləri var: "Ermənistan birmənalı olaraq istəmir ki, Azərbaycanın beynəlxalq əlaqələri güclənsin. Xüsusilə də xristian dünyası ilə bizim əlaqələrimizin möhkəmlənməsi onları ciddi narahat edir. Digər bir səbəb isə qarşılıqlı müqayisədən doğur. Məsələn, Ermənistanla müqayisədə bizim həm Avropa, həm də digər xristian ölkələri ilə münasibətlərimiz daha yüksək səviyyədədir. Ötən ilin sonlarında Paşinyanın da İtaliyaya səfəri reallaşdı. İndi müqayisə edin bu səfərləri. Paşinyanın işi orada o oldu ki, ölkəsi üçün biznesmenlərdən investisiya dilənsin. Ona da nail ola bilmədi, yalnız qarşılıqlı vədlər verildi. İlham Əliyevi isə İtaliyanın ən nüfuzlu firmaları görüşə dəvət etdi və ondan Azərbaycanda fəaliyyət üçün şəraitin yaradılmasını istədilər. Ermənistanda bu fərqləri aydın sezirlər. Çünki indi informasiya bir anda hamıya çatır. Hazırda Azərbaycanla İtaliyanın arasında 6 milyardlıq mal dövriyyəsi var. Ölkələrimiz arasında olan dövriyyənin 5,5 milyardı Azərbaycandan İtaliyaya ixrac olunan neftin payına düşür. TAP işə düşəndən sonra iki ölkə arasındakı dövriyyə daha 2 milyard artıb, olacaq 8 milyard. Azərbaycan bütün bu parametrlərə görə Ermənistanı arxada qoyur. Həm də keyfiyyət baxımından üstün mənzərə yarada bilir. Əlaqələrimiz həm də humanitar və mədəniyyət sahəsində inkişafdadır. Bunun nəticəsidir ki, həmin ölkədə 2020-ci il "Azərbaycan mədəniyyəti ili" elan edilib. Vatikana olan qısqanclıq da təbiidir. Çünki müsəlman ölkəsi olan Azərbaycana xristian sayılan Ermənistandan daha böyük diqqət var.

**Bütün bunlara kölgə salmaq üçün erməni mediası belə fəallıq ortaya qoyur. Paşinyanı heç Vatikanın həndəvərinə buraxmadılar. Bu səbəbdən də gedib Vatikanı sərt tənqid etdi. Azərbaycanın apardığı siyasət gedib xristian dünyasının ürəyinə çatıb. Ermənistan bacarırsa, bizimlə ayaqlaşsın. Paxıllıq etməklə iş bitmir".**

***Məhəmmədəli QƏRİBLİ***

# 28 sənəd Əliyevin İtaliyaya səfərinin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir

***Vüqar Rəhimzadə:** "Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib"*

**"Azərbaycan istər regional, istərsə də beynəlxalq miqyasda xarici dövlətlərlə qarşılıqlı əməkdaşlıq imkanlarının möhkəmləndirilməsi və daha da genişləndirilməsi istiqamətində mühüm addımlar atır. Möhtərəm Prezidentimiz İlham Əliyevin İtaliyayagerçəkləşən dövlət səfəri bu baxımdan böyük önəm kəsb edir.**



Dövlət səfəri zamanı müzakirə olunan məsələlər, ölkələrimiz arasında siyasi, müdafiə, iqtisadi-ticarət, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman sahələrini əhatə edən 28 sənədin imzalanması səfərin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir". Bu fikirləri KİV-ə açıqlamasında Yeni Azərbaycan Partiyası(YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycan Prezidentinin İtaliyaya dövlət səfərini şərh edərkən deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan bir çox Avropa ölkələri, eyni zamanda, İtaliya ilə sıx əlaqələrə malikdir: "Ölkəmiz Avropa İttifaqına daxil olan dövlətlərlə ayrı-ayrılıqda qarşılıqlı maraqlara söykənən möhkəm münasibətlər yarada bilib. İtaliya isə bu sırada xüsusi olaraq fərqlənir. Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsindədir. Ölkələrimiz ikitərəfli münasibətlər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində istər siyasi, istərsə də iqtisadi sahələrdə hər zaman bir-birilərinə dəstək verirlər. Eyni zamanda, İtaliyadaim Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin daha da yaxşılaşması işində fəal rol oynayır".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, dövlət səfəri zamanı ölkələrimiz arasında imzalanan sənədlər yeni perspektiv inkişaf istiqamətlərindən xəbər verir: "Səfər zamanıAzərbaycan Prezidenti və İtaliyanın Baş Naziri tərəfindən "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" imzalanıb. Bu sənəd digərlərindən əhəmiyyətinə görə fərqlənir. Əsas məqam odur ki, Birgə Bəyannamə Azərbaycanın xarici ölkələrlə bu adda imzaladığı ilk sənəddir və "Böyük Yeddiliyin" üzvü olan ilk ölkə ilə imzalanıb. Sözsüz ki, bu amil bir daha sübut edir ki, Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı çərçivəsində həlli, BMT və ATƏT-in müvafiq sənəd və qərarları öz əksini tapıb. Bununla yanaşı, Birgə Bəyannamədə Cənub Qaz Dəhlizinin tam şəkildə fəaliyyət göstərməsinə və Azərbaycan qazının Avropaya daşınmasına imkan yaradacaq TAP layihəsinin vaxtında tamamlanması üçün səylərin göstərilməsi bəyan edilib. Bu cür əhəmiyyətli sənədin imzalanması ölkələrimiz arasında münasibətlərin inkişafına, daha da dərinləşməsinə böyük dəstək verəcək".

Vüqar Rəhimzadə Azərbaycan-İtaliya iqtisadi əlaqələrinə də toxunub və gələcək üçün geniş imkanların mövcud olduğunu bildirib: "Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 6 milyard dollar olub. Bu rəqəm Azərbaycanın xarici ticarət dövriyyəsinin 18,04 faizinə bərabərdir. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi isə Azərbaycanın payına düşür.Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti qeydiyyatdan keçib. İtalyan şirkətləri Azərbaycanın neft-qaz və qeyri-neft sektorunda ümumi dəyəri 10 milyard dollardan yuxarı olan 300-dən artıq müxtəlif layihələrdə iştirak edirlər. Məncə, bu rəqəmlər iqtisadi münasibətlərimizin hansı səviyyədə olduğunu nümayiş etdirir".

"İki sahil" qəzetinin baş redaktoru mədəni əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi 2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan olunmasını da xüsusi olaraq vurğulayıb. Qeyd edib ki, bu kimi məqamlar həqiqətlərimizin təbliğində müstəsna rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# İlham Əliyev Münhendə Paşinyanın "yandan çıxartma" tarixi "faktlarını" yerə vurdu - Ermənistanın elm cəmiyyəti də susdu

## *Qasım Hacıyev: "...öz uydurma, zərərli yazıları ilə erməniləri ideoloji cəhətdən zəhərləyən alimlər belə ona dəstək vermədilər"*

**Saxtakarlıq elə bir məfhumdur ki, gec-tez ədalət qarşısında parça-parça olur, dağılır. Uzun illərdir ki, saxtakarlığı özlərinə həyat tərzi seçən ermənilər artıq bunu XX əsrdə Azərbaycan ərazilərində qurduqları Ermənistan ölkəsinin dövlət siyasətinə çeviriblər. Yalan, riya, hiylə, məkr, terror üzərində qurulan Ermənistan özü bu gün bütün dünyaya yalan saçır.**

Yalanlar, uydurmalar əsasında yaratdıqları qondarma tarix və mifik qəhrəmanları, "öndər"ləri artıq iflasa uğramaqdadır. Tarixdə heç bir dövləti olmayan, bir millət, xalq kimi özünə mədəniyyət yaratmayan, başqa xalqların mədəniyyətini mənimsəyən ermənilər artıq dünyada rəzil duruma düşüblər. Məlumdur ki, ermənilər tarix boyu yalan danışıb, uydurma tarixlər yaradıblar. Erməni kilsəsinin hazırladığı plan əsasında yaradılan qondarma erməni tarixini yazan, yaradan adamların özləri belə yaratdıqları dolaşıqlıqların içində itib batıblar. Ermənistana rəhbərlik edən şəxslərin hamısı erməni tarixçilərinin uydurduqları tarixləri əzbərləyiblər. Yaratdıqları saxta və qondarma tarixləri isə bu gün onların xeyrinə işləmir.

Məlum olduğu kimi, fevralın 15-də keçirilən Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil olunan debatda Azərbaycan və dünya ictimaiyyəti bir daha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanı, necə deyərlər, daşdan keçən tutarlı faktlarla çıxılmaz vəziyyətə və aciz duruma salmasının şahidi oldu. Dağlıq Qarabağın tarixi, müxtəlif dövrlərdə bu ərazilərin kimə mənsubluğu ilə bağlı tarixi həqiqətləri əks etdirən faktlar Ermənistanın işğalçı olduğunu açıq-aşkar bir daha təsdiq etdi. Bu mənada, Prezident İlham Əliyevin Dağlıq Qarabağın Azərbaycana məxsus olması ilə bağlı söylədiyi təkzibolunmaz faktlara əsaslanan tarixi həqiqətlər qarşısında Paşinyanın əsl erməni xislətinə xas olan, eramızdan əvvəlki dövrə mücərrəd və dolayı ekskursu və digər sayıqlamaları beynəlxalq auditoriyanı və dünya ictimaiyyətini çaşdırmaq cəhdindən başqa bir şey deyildi.

Prezident İlham Əliyev XIX əsrin əvvəlindən başlayaraq 200 il ərzində imzalanmış çoxsaylı saziş və müqavilələri xronoloji ardıcıllıqla sadaladığı halda, Paşinyan bir dənə də olsun hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoya bilmədi. Bununla da Prezident İlham Əliyev Dağlıq Qarabağın həm hüquqi, həm də coğrafi baxımdan Azərbaycana məxsus olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Müzakirələr zamanı əsasən uydurma, qondarma fikirlərdən istifadə edən Paşinyan pərt vəziyyətə düşdü. Diqqətçəkən əsas məsələ isə o oldu ki, Paşinyanın Münhendəki çıxışına Ermənistanın elm adamları, tarixçiləri müsbət reaksiya vermədilər. Elm adamlarından, tarixçilərdən heç bir dəstək qazana bilməyən Paşinyan bununla daha ağır duruma düşdü. Paşinyan özbaşına danışmırdı ki, o bu "fakt"ları erməni tarixçilərin uydurmalarına, sayıqlamalarına istinad edərək söyləyirdi.

Qeyd edək ki, Paşinyan erməni elm adamlarından, Ermənistan Elmlər Akademiyasından dəstək qazana bilməsə də, tarixi savadsızlığına görə elm adamları, politoloqlar, yazıçılar tərəfindən sərt şəkildə tənqid edildi. Məsələn, bütün dünyanın diqqətində olan debata şərh verən erməni alimləri İlham Əliyevin tarixi bilgisinə, siyasi ustalığına, peşəkarlığına, liderliyinə, sözün həqiqi mənasında, həsəd hissi ilə yanaşıblar.

Ermənistanın əksər media orqanlarında və sosial şəbəkələrdə Baş nazirin debatdakı çıxışı onun məğlubiyyəti kimi dəyərləndirilib və sərt tənqid atəşinə tutulub.

Ermənistanın keçmiş müdafiə naziri Artak Zakaryan "Facebook" səhifəsində Paşinyanın Azərbaycan Prezidentinə məğlub olduğunu qeyd edib: "Mən heç vaxt Paşinyandan Qarabağ məsələsində müsbət irəliləyiş və ya həll gözləmirdim və bu barədə deyirdim. Münhendə baş verənlər - bu qeyri-mütəşəkkil, yarımçıq söhbət, yumşaq desək, olan bütün ümidləri sarsıtdı. Aydındır ki, Paşinyan hətta Qarabağ məsələsinin həlli ilə bağlı fasiləyə belə tab gətirə bilmir. İlham Əliyev danışıqlar prosesində məsələni mərhələli həll yoluna yönəltdiklərini bir daha qeyd etdi".

Keçmiş nazir etiraf edib ki, Paşinyan İlham Əliyevin fikirlərinə tam cavab verə bilməyib: "Birtəhər Düşənbə haqqında danışdı. Buna hətta Məmmədyarov da güldü. İlham Əliyev bizə öz müqəddəratımızı təyin etmək üçün başqa bir yer tapmağı tövsiyə edərkən, Paşinyan niyə yenidən Tiqran dövrünə qayıdır və orada olanlarda gülüş doğurur? Keçmiş xatirələrə və tarixi mübahisələrə nə ehtiyac var axı?"

Separatçı rejim nümayəndəsi Vaqram Balayan "tert.am" saytında görüşlə bağlı açıqlamasında Paşinyanın debatda çıxışını tənqid edib. Qeyd edib ki, o, İlham Əliyev tərəfindən təqdim edilmiş tarixi hadisələrə adekvat reaksiya verə bilməyib. Xüsusilə də Xocalı məsələsində.

Ermənistanın müxalif Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov özünün "Facebook" səhifəsində ölkəsinin Baş nazirini tənqid edib: "Paşinyan-Əliyev debatına baxdınız? Bir neçə dəqiqə ərzində Ermənistan qapısından o qədər avtoqol buraxdı ki..."

Erməni politoloq Andranik Tevanyan isə ölkə rəhbəri yükünün Paşinyanın çiyinlərinə ağır gəldiyini qeyd edib: "Əliyevin davranışı, onun duruşu, Paşinyanın çıxışlarına rişxəndlə gülməsi onu göstərdi ki, bu savaşdan məğlub ayrılan tərəf biz olduq. Hətta Azərbaycan Xarici İşlər naziri Elmar Məmmədyarov belə özünü gülməkdən saxlaya bilmirdi. Paşinyan onunla belə davranılmasına görə özünü qınamalıdır. Belə göründü ki, Paşinyan-Əliyev debatı ağır psixoloji təəssürat oyatdı. Biz, əslində, Nikol Paşinyanın əsl çəkisini gördük. Paşinyanın bunun üçün nə siyasi savadı, nə operativ reaksiya qabiliyyəti, nə də cürəti var. Bunun əvəzində bizə hələ də "Tiqran"dan danışır. O, bir daha göstərdi ki, ölkə rəhbəri kostyumu ona çox böyük gəlir." Politoloq Aleksandr Manasyan Paşinyanı bu debata kifayət qədər hazırlaşmamaqda günahlandırıb. ABŞ-da yaşayan yazıçı Anna Terkott-Astvaçaturyan sosial şəbəkə hesabında Ermənistan Baş nazirinin Münhendəki çıxışını "biabırçılıq" adlandıraraq, "ayıb olsun!" - deyib.



*"Paşinyan erməni alimlərinin, yazıçılarının yazdıqlarına inanıb ona istinad etmək istəyirdi ki, gördüyünüz kimi, bununla da özünü biabırçı vəziyyətə saldı"*

Erməni müğənni, şair Anna Hovner isə Paşinyanın "heç nə" olduğunu deyib: "Utandığımdan yerin dibinə girirəm. Nikol Paşinyan, məişət adamları sənin çıxışının parlaq bir performans olduğunu söyləsə, inanma. Özünü reallıqdan uzaqlaşdırma və bil: sən, sadəcə, sıfırsan, heç nəsən!"

Erməni analitik, "Alternativ layihələr qrupu"nun rəhbəri Vahe Ovhannisyan Azərbaycan Prezidentinin sağlam məntiqə fokuslanaraq öz təcrübəsi sayəsində debatda qalib gəldiyini vurğulayıb: "Münhendən sonra Paşinyanın komandası yeraltı vəziyyətə düşdü. Onun 88 nəfərlik şanlı parlamentindən heç bir səs çıxmadı. Onlar öz liderlərini qoruya bilmədilər. Bu, təkcə Paşinyanın faciəsi deyil, həm də o deməkdir ki, ölkədə siyasi sistem, siyasi düşüncə yoxdur və buna görə də böyük uğursuzluğun qarşısını almaq üçün zəmanət mövcud deyil."

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyanın debatdakı "arqument"ləri ermənilərin özləri tərəfindən mənfi qarşılanıb. Erməni saxtakarlığının mahir ifaçısı olan Paşinyanın siyasi naşılığının və tarixi savadsızlığının ona nifrət qazandırdığını bildirən Q.Hacıyev vurğuladı ki, erməni tarixçiləri, akademikləri o qədər yalan, uydurma, saxta fikirlər söyləyiblər, bu dəfə Azərbaycan Prezidenti İlham Əliyevin parlaq məntiqi qarşısında susmağa məcbur olublar. Bundan başqa, Paşinyanın erməni alimlərindən heç bir dəstək almadığını, əksinə, onlar tərəfindən daim tənqid edildiyini deyən Q.Hacıyevin sözlərinə görə, Paşinyan bir Baş nazir kimi Ermənistanda arzuedilməz rəhbərdir: "Əslində, Paşinyanın hakimiyyətə gəldiyi dövrlə indiki dövrü müqayisə etdikdə görürük ki, erməni cəmiyyəti, elmi ictimaiyyəti artıq ona inanmır. Əvvəllər haradasa onun ölkəni ağır durumdan çıxaracağını gözləyirdilər, amma onun heç bir bəyanatı, vədi özünü doğrultmadı. Paşinyan öz ölkəsində tamamilə imicini itirib. İndiyə qədər cəfəngiyyat danışa-danışa gəlirdi. Hətta Dağlıq Qarabağda keçirdiyi görüşdə də, çıxışda da özünü o ki var öymüşdü. Bu da erməni xalqında, elm adamlarında narazlıq doğururdu. Paşinyanın Münhendəki məğlubiyyəti elə bir final idi ki, bu onu məhv etdi. Biri var özü deyib, erməni xalqı eşidirdi. Bu dəfə isə onun saxtakarlığını, yalanlarını bütün dünya ictimaiyyəti eşitdi və onun səviyyəsinin necə aşağı olduğunu gördü.

Cənab Prezident İlham Əliyev onun danışdıqlarına, hətta danışmadıqlarına elə tutarlı faktlar, dəlillər, arqumentlər gətirdi ki, bizim Prezidentin qarşısında nəinki Paşinyan, hətta o uydurma tarixi yaradanların heç biri duruş gətirə bilməzdi. Bir şeyi də qeyd etməliyəm ki, təkcə Paşinyanın deyil, bütün erməni xalqının fikri bizim və dünya üçün maraqlıdır ki, onlar Paşinyanın səhvləri haqqında nə düşünürlər. Paşinyan həqiqət, ədalət olmayan bir mövqedə durub və o yalan danışmağa məcburdur. Baş verən hadisələr də, tarix də sübut edir ki, erməni alimlərinin tarix boyu etdiyi saysız saxtakarlığı Paşinyan 45 dəqiqə ərzində duruya çıxara bilməzdi. O, tarixin hansı dövründən danışmaq istədisə, alınmadı, yalanı tez ifşa olundu. Paşinyan erməni alimlərinin, yazıçılarının yazdıqlarına inanıb ona istinad etmək istəyirdi ki, gördüyünüz kimi, bununla da özünü biabır vəziyyətə saldı.

Paşinyana o qədər inamsızlıq, nifrət var ki, öz uydurma, zərərli yazıları ilə erməniləri ideoloji cəhətdən zəhərləyən alimlər belə ona dəstək vermədilər. Halbuki, dediyimiz kimi, Paşinyan da o zərərli, qondarma tarixdən danışırdı. Erməni alimləri XX əsrin əvvəllərindən xüsusi tapşırıqlar əsasında saxtakarlıqla, tarixi saxtalaşdırmaqla məşğul olublar. Onlar hətta özlərinin obyektiv yazan əcdadlarını da tənqid ediblər və onların yazdıqlarını da saxtalaşdırıblar. Erməni tarixşünaslığı başdan-başa saxtadır. Bu gün erməni cəmiyyəti, elmi ictimaiyyəti Paşinyana dünya ictimaiyyəti qarşısında buraxdığı səhvləri bağışlaya bilmir. Əvvəllər Paşinyan kiçik auditoriyalarda yalan danışırdı, onu o qədər də çox insan dinləmirdi, amma bu dəfə onun yalanları ifşa olundu, bu da ermənilərin imicini çox pis formada aşağı saldı. Onsuz da ermənilərin imici həmişə aşağı səviyyədə olub, bu dəfə Paşinyan onu lap dərənin dibinə yuvarladı".

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Koronavirusla bağlı İrandan və Azərbaycandan ən yeni xəbərlər - nazirliklərimizdən təkzib, İranda virusun mənbəyi məşhur Qum imiş...

**Çinin Uhan şəhərində 2019-cu ilin son ayında ortaya çıxan koronavirus (COVİD-19) sürətlə dünyaya yayılmaqda davam edir. Virusun sürətlə yayıldığı son ölkələrdən biri də İrandır. Rəsmi açıqlamalara görə, bu ölkədə ölənlərin sayı 12-yə, koronavirusa yoluxanların sayı 64 nəfərə çatıb.**

Bununla bağlı Azərbaycan İranla sərhəd-keçid məntəqələrində nəzarət tədbirlərini artırıb. Ancaq İranla sərhəd-keçid məntəqələrinin bağlanması və Azərbaycanda da koronavirus aşkarlanması xəbərləri rəsmən təkzib edilir.

İranın Biləsuvar gömrük idarəsinin direktoru Ramin Zəhiri deyib ki, İran və Azərbaycan arasında Biləsuvar sərhəd-keçid məntəqəsi sərhəd fəaliyyətini davam etdirir. Onun sözlərinə görə, yeni koronavirusun daşıyıcılarının müəyyənləşdirilməsi üçün iki ölkənin sərhəd-keçid məntəqələrində birgə əməkdaşlıq aparılır. Zəhiri əlavə edib ki, Biləsuvar sərhəd terminalında avtobus, minik avtomobilləri və sərnişinlərin keçidi davam edir.

İranlı gömrük rəsmisi koronavirus nəticəsində Biləsuvar gömrüyünün bağlanması ilə əlaqədar şayiələri də təkzib edib.

Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi sosial şəbəkələrdə koronavirusa yoluxmuş şəxslərin Cəlilabad və Lənkəran rayon Mərkəzi Xəstəxanalarında yerləşdirilməsi barədə yayılan məlumatlara münasibət bildirib.

Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə yaydığı məlumatda qeyd edilir ki, həmin xəbərlər həqiqəti əks etdirmir: "İranla sərhədyanı rayonlardakı - Biləsuvar, Lənkəran, Masallı, Cəlilabad, Astara - tibb müəssisələrində lazımi tədbirlər görülüb. Belə ki, sözügedən rayonların mərkəzi xəstəxanalarında İnfeksion şöbələr və bokslar (digər şöbələrlə əlaqəsi olmayan palatalar) hazır vəziyyətdədir. Biləsuvar və Astara sərhədlərində təcili və təxirəsalınmaz tibbi yardım tam təchiz olunmuş vəziyyətdədir. Eyni zamanda, sərhəddəki tibb məntəqələri gücləndirilmiş iş rejimində çalışır".

Məlumatda qeyd edilir ki, Azərbaycanda koronavirusa yoluxma halı aşkarlanmayıb. Bunu Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da öz rəsmi internet səhifəsində təsdiqləyib. Koronavirusa yoluxma halının qeydə alındığı ölkələrlə bağlı məlumat ÜST-ün rəsmi internet səhifəsində və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilib.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da Azərbaycanda koronavirusun aşkarlanması ilə bağlı yayılan məlumatlara münasibət bildirib. ÜST-nin Azərbaycandakı nümayəndəliyindən "Trend"-ə verilən məlumata görə, sosial şəbəkələrdə koronavirusla bağlı yayılan saxta xəbərlərə etibar etməmək, məlumatı yalnız Azərbaycandakı rəsmi qurumlardan və ÜST-nin sosial şəbəkələrdəki səhifələrindən əldə etmək tövsiyə edilir:

"Yayılmış əsassız xəbərlər koronavirus xəstəliyindən (COVID-19) daha təhlükəlidir. Hazırda Azərbaycanda koronavirus xəstəliyinə (COVID-19) yoluxma halı qeydə alınmayıb. Ümumdünya Səhiyyə Təşkilatı aidiyyəti qurumlarla daimi təmasdadır. Ölkədə koronavirusa yoluxma halının müəyyənləşdirilməsi üçün diaqnostik alətlər dəsti mövcuddur və şübhəli şəxslərdən götürülən nümunələrin diaqnostikası həmin alətlər vasitəsilə aparılacaq".

ÜST bəyan edir ki, qabaqlayıcı tədbir olaraq, kəskin respirator virus infeksiyalarına yoluxmuş insanlarla təmasdan çəkinmək, əlləri tez-tez yumaq (xüsusilə xəstə insanlarla və onların əşyaları ilə təmasdan sonra) lazımdır. Respirator xəstəliyin simptomları müşahidə olunan şəxslər öskürərkən və asqırarkən məsafə saxlamaq, ağız və burunu dəsmal və ya dirsək bükümü ilə bağlamalıdırlar.

ÜST beynəlxalq səfərlərlə bağlı hər hansı bir məhdudiyyətin tətbiq olunmasını tövsiyə etmir. Səfərdən öncə, ərzində və ya sonra respirator xəstəliklərin simptomları müşahidə olunarsa, səfər edən şəxslərin həkimə müraciət etmələri və səyahət tarixçələrini bölüşmələri məsləhət görülür.

"Azərbaycan Hava Yolları" QSC də İran İslam Respublikası istiqamətində olan hava reysləri barədə məlumat yayıb. Qurumun mətbuat xidmətindən bildirilib ki, bu istiqamətdə hər hansısa dəyişiklik nəzərdə tutulmayıb. Çoxsaylı müraciətlərlə əlaqədar olaraq "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti bildirir ki, "Buta Airways" aviaşirkəti hazırda İran istiqamətində yerinə yetirilən uçuşların mövcud cədvəlinə dəyişiklik etməyi planlaşdırmır.

AZAL prezidenti Cahangir Əsgərov bildirib ki, aşağı büdcəli "Buta Airways" aviaşirkəti Bakı-Tehran-Bakı istiqamətində gündəlik uçuşlar həyata keçirir və ştat rejimində hazırkı cədvələ əsasən reyslər həyata keçirməyi planlaşdırır: "Həmçinin bildirmək istəyirəm ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda və Azərbaycanın digər hava limanlarında "İran Air" aviaşirkəti tərəfindən yerinə yetirilən reyslərə heç bir məhdudiyyət tətbiq olunmayacaq.



Bundan əlavə, Heydər Əliyev Beynəlxalq Aeroportunun müvafiq qurumları Azərbaycan Dövlət Gömrük Komitəsi və Səhiyyə Nazirliyi ilə birlikdə İrandan gələn reyslərdə sanitar-karantin nəzarətini gücləndirib, bu istiqamətdə əlavə tədbirlər görüləcək.

Bu arada, İran İslam Respublikasından Azərbaycanda fəaliyyət göstərən "Sədərək" Ticarət Mərkəzinə satış üçün malların gətirilməsi dayandırılıb. Bu barədə açıqlamasında mərkəzin mətbuat xidmətinin rəhbəri Mikayıl Qədimov deyib. Onun sözlərinə görə, İrandan "Sədərək" Ticarət Mərkəzinə əsasən xalça və digər toxuculuq məhsulları gətirilir: "Həmin mallar isə artıq gətirilmir. Həm indiki vaxtda bazarda İran malları işləmir. Xalça biznesi ilə məşğul olan şəxslərin əvvəlki aylardan gətirdiyi mallar hələ satılmayıb. Ona görə də İrandan "Sədərək" Ticarət Mərkəzinə malların gətirilməsi dayandırılıb. Bazara, əsasən Türkiyə və Çindən mallar gətirilirdi ki, koronavirusla bağlı Çindən də malların gətirilməsi dayandırılıb. İndi bazara ancaq Türkiyədən mallar gətirilir".

Dövlət Turizm Agentliyi (DTA) isə İranda koronavirusun yayılmasının iki ölkə arasındakı vəziyyətə turizm baxımından hansı formada təsir göstərəcəyini açıqlayıb.

Agentliyin mətbuat katibi Kənan Quluzadə bildirib ki, hazırda koronavirusla əlaqədar dünya turizmi krizis mərhələsini keçir: "Buna görə də hazırkı vəziyyət yalnız milli səviyyədə verilən qərarlardan asılı olmur. Bu həm də insanların psixoloji durumundan asılıdır. Dünyada bir çox insanlar öz səfərlərini ləğv edir və səfərlərə daha ehtiyatlı yanaşırlar. Dünyanın bir çox ölkələrində, hətta irimiqyaslı tədbirlər də təxirə salınır. Əlbəttə ki, bütün bunlar ümumi mənzərəyə mənfi təsir göstərir".

K.Quluzadə qeyd edib ki, turizm bazarındakı qlobal krizis Azərbaycanın turizm bazarına da təsir göstərə bilər. O əlavə edib ki, DTA-nın hazırda turizmlə bağlı atdığı atddımlar və verdiyi proqnozlar iki faktordan asılıdır. DTA rəsmisinin sözlərinə görə, bu həm dünyada baş verən qlobal vəziyyətdən, həm də Azərbaycanın sərhəd-keçid məntəqələrində rejimə cavabdeh olan dövlət strukturlarının qərarlarından asılıdır: "Biz əlbəttə ki, taktiki gedişlərimizi digər dövlət strukturlarının addımları ilə uyğunlaşdırırıq. Situasiyanın qəlizliyi həm də ondan ibarətdir ki, vəziyyət hər gün mənfiyə doğru dəyişir. Amma biz ümid edirik ki, yaxın zamanlarda dünyadakı qlobal vəziyyət dəyişəcək və bu virus yox olduqdan sonra dünya turizmi normal vəziyyətinə geri qayıdacaq, Azərbaycanın da bu il turizmlə bağlı gözləntiləri, planları yenidən aktiv surətdə həyata keçiriləcək".

Koronavirusun Novruz bayramında ölkəmizə İrandan gələcək turistlərin sayına hansı formada təsir göstərəcəyinə gəldikdə, K.Quluzadə bununla bağlı fərqli proznozlarının olduğunu söyləyib: "Çünki sərhəd açıq qalarsa, bu başqa vəziyyətin, sərhəd bağlı qalarsa, tamam başqa vəziyyətin yaranmasına səbəb olacaq. Biz həmin bu qərarlardan asılı olaraq biləcəyik ki, turizmlə bağlı hansı konkret addımları ata biləcəyik".

### İran hökumətinin həqiqəti gizlətdiyi, iki həftədə tək Qum şəhərində 50 nəfərin öldüyü iddia edildi

Çinin Uhan şəhərində 2019-cu ilin son ayında ortaya çıxan koronavirus (COVİD-19) dünyaya yayılmaqda davam edir. Çində virusdan həyatını itirənlərin sayı 2 594-ə, yoluxanların sayı isə 80 minə çatıb.

Baki-xeber.com xəbər verir ki, Bəhreyn, İraq və Əfqanıstandan da ilk dəfə koronavirusa yoluxma halları aşkarlanıb. Küveytdə İrandan gələn 3 nəfərdə virus aşkarlanıb. Küveyt rəsmi xəbər agentliyi (KUNA) sözügedən üç nəfərin Məşhəd şəhərini ziyarət etdiklərini və ölkəyə qayıtdıqlarını açıqlayıb.

Əfqanıstan, Bəhreyn, İraq və Küveyt səlahiyyətliləri də virusların İran mənşəli olduğunu qeyd ediblər. Bəhreyn Səhiyyə Nazirliyi virusa tutulan şəxsin İrandan qayıtdığını açıqlayıb. İraqda virusa yoluxduğu müəyyənləşdirilən şəxsin də iranlı bir tələbə olduğu qeyd edilib.

İraq Küveytin tələbi ilə Safvan sərhəd qapısını bağlayıb. Küveyt İrandan gələn gəmilərin ölkəyə girişinə də qadağa qoyub.

İtaliyada bu virusdan ölənlərin sayı 4-ə, Cənubi Koreyada isə 8-ə çatıb. Virusun sürətlə yayıldığı son ölkələrdən biri də İrandır. Rəsmi açıqlamalara görə, ölənlərin sayı 12-yə, koronavirusa yoluxanların sayı 64 nəfərə çatıb. İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin mətbuat xidmətinin müdiri Kiyanuş Cahanpur bildirib ki, son sutka ərzində virusa yoluxan 18 nəfərdən 8-i Qum şəhəri, 3 nəfəri Tehran şəhəri, 1 nəfəri Həmədan vilayəti, 2 nəfəri Mərkəzi vilayət, 2 nəfəri İsfahan vilayəti, 2 nəfəri Gilanda olub. Cahanpur deyib ki, həlak olanların əksəriyyəti ya Qum şəhəri sakini olub, ya da bu şəhərə səfər edib. İran rəsmisi heç bir şəhərin karantinə alınmadığını və lazım olduğu halda Qum şəhərində məhdudiyyətlərin yaradılacağını deyib.

Bununla yanaşı İranda koronavirusla bağlı ziddiyyətli xəbərlər yayılır. Belə ki, İran Məclisinin üzvü Əhməd Emirabadi son 2 həftə ərzində Qum şəhərində koronavirusdan 50 nəfərin öldüyünü iddia edib. Parlamentdəki millət vəkillərinə müraciət edən Emirabadi sözügedən virusun 3 həftə əvvəl Qum şəhərində aşkarlandığını deyib və mövzu ilə bağlı rəsmi açıqlamanın gec verilməsini tənqid edib. Emirabadi Qumda vəziyyətin yaxşı olmadığını deyib: "Qumda vəziyyət yaxşı deyil. Yoluxmuş xəstələrlə məşğul olan tibb bacılarının xəstəlikdən mühafizəsi üçün xüsusi geyimləri yoxdur. Tibb bacıları xəstələrə qorxu ilə yanaşırlar. Xəstəliyi aşkar etmək üçün yetərli ləvazimat yoxdur. Bir çox apteklərdə maska belə yoxdur".

Emirabadi Qumda 250 adamın da karantində olduğunu açıqlayıb.

***Namiq QULİYEV***

**İşğalçı Ermənistanda baş verənlər bu ölkə daxilində aprelin 5-də baş tutacaq konstitusiya referendumunun yeni ziddiyyətlərə yol açacağını göstərir. Ermənistanın "İravnuk" nəşri yazır ki, baş nazir Nikol Paşinyan konstitusiya referendumunun kampaniyası zamanı növbəti ifrat addımlara hazırlaşır.**

# Ermənistanda kəskin "konstitusiya referendumu" qarşıdurması başlayır...

Qəzetin məlumatına görə, Paşinyan yenidən "Rembo" obrazı ilə xalqın gözünə kül üfürməyə, lazım gəldiyi təqdirdə isə ifratçılıqlara əl atmağa hazırlaşır. Qeyd olunur ki, Paşinyan 650 min "bəli"ni qanuni yolla təmin edə bilməyəcəyini bilir və çox narahatdır, buna görə də, son iki ildə olduğu kimi, misli görünməmiş ifratçılıqlara gedəcək. Bu ifratçılıq yeni mitinqlər təçkil etmək, siyasi rəqibləri nümayişkaranə şəkildə həbsə atmaq və bu qəbildən olan digər hallardır. Amma əsas məqsəd konstitusiya referendumundan sonra baş nazirin bütün rəqiblərini sıradan çıxarmaq niyyətidir. Bunu Ermənistanın "168 Jam" nəşri də xüsusi olaraq vurğulayır.

Qəzet baş verənlərlə bağlı yazır: "Ermənistanda 5 aprel tarixinə təyin edilən konstitusiya referendumu, artıq başlayan hakimiyyət kampaniyası bir daha və daha parlaq şəkildə bir həqiqəti ortaya qoydu: Paşinyan "inqilab"ı, həmin inqilabı həyata keçirən cəmiyyəti satır". Bildirilir ki, Paşinyan "inqilab" adı ilə inqilabın həqiqi məqsədlərini aşmaq məsuliyyətindən növbəti dəfə yaxa qurtarmaq üçün onu satır:"Hakimiyyət dəyişikliyindən təxminən iki il keçib, amma Ermənistanda real hər hansı inqilabi dəyişiklik baş vermədi. Ölkədə keçmişdə mövcud olan eyni qurumlar və idarəetmə sistemi fəaliyyətdədir. Paşinyan vaxtilə özü tərəfindən dəfələrlə tənqid edilən super baş nazirlik sistemində mövqeyini bərkidib. Ölkə keçmişdəki təkanla yaşamağa davam edir. Belə bir vəziyyətdə, hətta hakimiyyətin iqtisadi inqilabı barədə danışmaq belə qeyri-ciddidir. Ona görə ki, xüsusilə iqtisadi həyatda hər hansı köklü dəyişiklik baş verməyib. Qeydə alınan dəyişiklik yalnız keçmiş oliqarxların indi "böyük sahibkarlar" adlandırılmasıdır. Yəni 2 il ərzində Ermənistanda baş verənlərin inqilabın nəticəsi olduğunu deməyə əsas verən hər hansı görünən, hiss edilən dəyişiklik baş verməyib. Nəticədə geridə qalan iki il ərzində inqilabdan yeganə miras qalan, Paşinyanın dünyaya sırımaq üçün ugursuz cəhdlərindən sonra, indi də öz vətəndaşlarına satmağa çalışdığı ritorika və ya bu ad altında olan "brend"dir.



Paşinyanın ötən gün referendum və inqilabın eyniləşdirildiyini gizlətməyən motivlərlə yazılmış bir qeydində vurğuladığı kimi, "İnqilab naminə, İnqilaba Hə, Azadlığa Hə" və digər bu kimi atəşfəşanlı şüarlar deyilənlərin sübutudur. Bundan sonrakı bütün məsələ budur ki, cəmiyyət yemi ikinci dəfə udacaqmı, hakimiyyət uğrunda ikinci dəfə inqilab olaraq "satın alacaqmı", yoxsa istənilən halda dünya tərəfindən rədd edilmiş bu məşğələdən imtina edəcəkmi? Hər hansı bir istənilən malın öz qiyməti var. 2018-ci ildə satılan inqilabın qiyməti Paşinyanın hakimiyyəti idi. 5 aprel referendumunda satışa çıxarılan bir inqilabın qiyməti nə olacaq? Sadə bir "bəli" və ya "yox" dilemmasını seçməyə yox, bu məsələ barədə düşünmək ictimaiyyətin ixtiyarındadır". Ermənistan Helsinki Komitəsinin sədri Avetik İşxanyan isə qeyd edir ki, Paşinyanın Konstitusiya Məhkəməsini ələ keçirmək planları işə yaramayıb və bunu referendum yolu ilə həll etməyə çalışmaqla cəmiyyəti öz cinayətinə alət etmək istəyir. Bunu Rusiyanın "Kommersant" qəzeti də xüsusi olaraq vurğulayır: "Ermənistanda aprelin 5-nə təyin edilmiş referendumdan əvvəl təbliğat-təşviqat kampaniyası başlayıb. Seçicilər Konstitusiya Məhkəməsinin 2015-ci ilədək təyin edilmiş üzvlərinin istefasının lehinə və ya əleyhinə səs verməli olacaqlar. Dəyişikliklər baş nazir Nikol Paşinyan tərəfindən irəli sürülüb. Onun üçün referendum, başqa heç bir vasitə ilə mümkün olmadığından, sözün əsl mənasında rəqibini, Konstitusiya Məhkəməsinin rəhbəri Hrayr Tovmasyanı siyasi səhədən kənarlaşdırmaq yoludur. Konstitusiya dəyişikliyini dəstəkləyən təşəbbüs qrupuna ərazi idarəetmə və infrastruktur naziri Suren Papikyan rəhbərlik edir. Ancaq bu kifayət qədər formal bir şeydir: Ermənistan baş nazirinin özü və onun "Mənim addımım" bloku islahatın lehinə əsas təşviqatçıdır.

Mövcud konstitusiya 2015-ci ildə qəbul edilib. Onun mətni faktiki olaraq keçmiş prezident Serj Sarkisyanın baş nazir kimi səlahiyyətlərini genişləndirmək üçün hazırlanıb. Yeni dəyişikliklərin məqsədi əksinədir. Nikol Paşinyan, nəhayət, dövlət başçısına etinasızlıq nümayiş etdirən köhnə elitanın nümayəndələrindən yaxa qurtarmaq niyyətindədir. Hökumətdəki genişmiqyaslı dəyişikliklərdən və erkən parlament seçkilərindən sonra belə insanlar yalnız bir dövlət orqanında qalıblar - mövcud qanunlara görə, ləğv oluna bilməz Konstitusiya Məhkəməsində. Vəziyyəti çətinləşdirən məqam budur ki, bəzi hakimlər köhnə konstitusiyaya uyğun olaraq təyin edilib, buna görə də, onların səlahiyyət müddəti 65 yaşla məhdudlaşır. Mövcud konstitusiya, öz növbəsində, Konstitusiya Məhkəməsi üzvlərinin yalnız 12 il vəzifədə qalmasına imkan verir. Nikol Paşinyan tərəfindən təklif edilən dəyişikliklər köhnə konstitusiyaya uyğun olaraq təyin olunan Konstitusiya Məhkəməsinin bütün üzvlərinin istefasını təklif edir. Bu, məhkəmə sədri və Ermənistan baş nazirinin əsas siyasi rəqibi Hrayr Tovmasyanın rəhbərlik etdiyi 9 hakimdən yeddisinin dəyişdirilməsi deməkdir. Referendum ideyasını kəskin tənqid edən "Maariflənmiş Ermənistan" parlament partiyasının rəhbəri Edmon Marukyan"Kommersant"a izah edib: "Hakimiyyət kampaniyasının bütün məntiqi "Xeyr" təşəbbüsünün formalaşmasından sonra onu "qaranlıq qüvvələr"lə, köhnə hökumətlə, korrupsioner məmurların müdafiəsi ilə bağlamaqdan ibarətdir. Sonra insanları referenduma gəlməyə inandırmaq üçün bu qrupa qarşı təbliğat aparılıb.

**Biz "şeytanların axtarışında" iştirak etməmək qərarına gəldik. Bu birincisi. İkincisi, prosesin konstitusiyaya zidd olduğunu söylədik. Yəni "Bəli" qərargahında iştirak və "Xeyr" qərargahında iştirak da konstitusiyaya ziddir". Konstitusiya dəyişikliklərini avtoritarizmə doğru addım hesab edə biləcək Qərb qurumlarının tənqidini də istisna etmək olmaz. Belə vəziyyətdə ölkə daxilində ziddiyyətlərin dərinləşməsi də qaçılmaz olacaq".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın Qərblə hərbi əməkdaşlığı Ermənistanda şok effekti yaradır - silahlanmamızda İtaliya təyyarələri...

**Azərbaycanın müxtəlif ölkələrdən davamlı olaraq hərbi texnika alışı Ermənistanda daim böyük narahatlıq yaradıb. Belə görünür ki, düşmənin bu xüsusda narahatlığı daha da artacaq. Ən azı o baxımdan ki, Azərbaycan və İtaliya hərbi sahədə əməkdaşlığı genişləndirmək üçün növbəti addım atıb.**

Məlumdur ki, iki ölkə arasında "M-346" təyyarələri inteqrasiya sisteminin alınması ilə bağlı sənəd imzalanıb. Belə ki, "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Leonardo S.p.A" arasında "M-346" təyyarələri inteqrasiya sisteminin alınması ilə bağlı Sazişə dair Bəyannamə"ni Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov və "Leonardo S.p.A"nın icraçı direktoru Alessandro Profumo mübadilə edib. Bəyannamə Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri çərçivəsində imzalanıb. Bununla Azərbaycan İtaliyadan "M-346" təyyarələrinin inteqrasiya sistemini alacaq.

Xatırladaq ki, 2010-cı ildən seriyalı istehsalına başlanılan İtaliyanın "Leonardo S.p.A" şirkətinin məhsulu olan "M-346" təlim təyyarəsi öz sinfində ən yaxşılardan biri hesab olunur. Məlumat üçün onu da bildirək ki, əvvəllər Rusiyanın "Yakovlev" şirkəti ilə birlikdə istehsalı planlaşdırılsa da, 2000-ci ildə tərəfdaşlığın ləğv olunmasından sonra "Alenia Aermacchi" şirkəti "M-346" təyyarəsini ayrılıqda istehsal etməyə başlayıb. Təyyarənin ilk uçuşu 2004-cü ildə həyata keçirilib. Hazırda İtaliya, İsrail, Azərbaycan, Sinqapur və Polşanın hərbi hava qüvvələri tərəfindən istismar olunur. 2016-cı ildə "Alenia Aermacchi"nin "Finmeccania" şirkətinə birləşməsindən sonra əsas istehsalçı 2017-ci ildən etibarən "Leonardo S.p.A" şirkəti olub. Şirkətin təmsilçisi Lorenzo Mariani qeyd edib ki, "Leonardo" Müdafiə Sənayesi Nazirliyi ilə əməkdaşlığını İtaliya - Azərbaycan münasibətlərinə uyğun davam etdirmək və bu istiqamətdə öz töhfəsini vermək niyyətindədir. Qeyd edək ki, "Leonardo" şirkəti müdafiə və təhlükəsizlik sahəsində müxtəlif çeşiddə məhsulların yaradılması və istehsalı üzrə tanınan şirkətlərdəndir. "Leonardo" geniş çeşiddə təlim-məşq təyyarələri, kommersiya, mülki, təhlükəsizlik və müdafiə məqsədli helikopterlərin ən geniş çeşidlərinin dizaynı, inkişafı, sınaqları, istehsalı, servisi və satışı ilə məşğul olur. Şirkət "Black Arrow", "Black Scarpion", MU90 kimi dəniz torpedolarını, müxtəlif çaplı artilleriya sistemləri və onların sursatlarını, təhlükəsizlik, informasiya, infrastruktur və ərazilərin müdafizəsi sistemlərinin istehsalını da həyata keçirir. Bu şirkətin məhsulu olan "M-346" təyyarəsi texniki xüsusiyyətlərinə görə döyüş aviasiya vasitəsi də hesab etmək olar. Belə ki, təyyarənin aşağı hissəsinə silahın inteqrasiya olunması üçün 5 asqı mövcuddur, o cümlədən effektiv hava hədəflərini məhv etmək üçün "hava-hava" raketləri ilə də təchiz edilə bilir. Bundan başqa, "M-346"nı yerüstü hədəflərin məhv edilməsi məqsədilə ağıllı bomba və idarəolunan raketlərlə də silahlandırmaq mümkündür. Təyyarənin praktikliyi baxımından isə əsas üstünlüyü "M-346"nın havada yanacaqla təmin edilməsi imkanının mövcud olmasıdır.

Təyyarənin müasir radiolokasiya sistemlərindən yayınması üçün yeni növ aktiv müdafiə sistemləri ilə də təchiz olunub. Bu, "M-346" hədəf olmaq şansını aşağı salır. "M-346" sinfində olan digər təyyarələrdən qiymətinə görə də çox baha deyil, ölkələrə döyüş-aviasiya parkının gücləndirilməsinə öz töhfəsini verə bilir. Azərbaycan üçün bu təyyarənin bir özəlliyi də var. Bu, silahlanmamızda olan müasir SOM qanadlı raketinin "M-346" təyyarəsinə inteqrasiya olunma imkanı ilə bağlıdır. SOM-B1 Türkiyənin Müdafiə sahəsində Tədqiqat və İnkişaf Mərkəzi olan TÜBİTAK-SAGE tərəfindən dizayn olunub. O quru, dəniz və hava platformalarından atıla bilən yüksək dəqiqlikli, yeni nəsil qanadlı raketdir. Xatırladaq ki, ölkəmiz artıq İtaliyadan 10 ədəd hərbi məqsədlər üçün istifadə olunan, reaktiv təlim-məşq təyyarəsi olan "M-346" alıb. Azərbaycan daha 15 ədəd "M-346" təlim-döyüş təyyarəsi sifariş verib. Belə vəziyyətdə Ermənistanda narahatlıq doğuran məqam Qərb hərbi texnologiyalarını Azərbaycana ayaq açmasıdır. Burada hesad edilir ki, yaranmış durum Dağlıq Qarabağ münaqişəsini hərbi həlli halında Ermənistana Azərbaycanın böyük zərbə vurması deməkdir.

İndilikdə görünən budur ki, Azərbaycan Qərb ölkələri ilə hərbi əməkdaşlığı daha da genişləndirəcək. Məsələn, məlumdur ki, ölkəmiz artıq Fransanın "Nexter", "Thales", "CS Communication", "Lacroix" şirkətləri ilə əməkdaşlıq edir. Burada xüsusən "Nexter" fərqlənir. Məlumat üçün bildirək ki, bu şirkət dünya ordularının yüksək texnologiyalı müdafiə məhsullarının hazırlanması və istehsalı sahəsində yaranan tələbatını qarşılamaq üçün yaradılıb. "Nexter" bütün qoşun növləri üçün yüngül zirehli avtomobildən ağır tanka qədər istənilən sinifdən olan vasitələrin, artilleriya qurğularının, müxtəlif çaplı və təyinatlı topların, onların quraşdırıldığı turellərin, idarəetmə sistemlərinin, müxtəlif optik avadanlıqların, robotların, kimyəvi mühafizə vasitələrinin, orta və böyük çaplı sursatların istehsalı ilə məşğul olur. Ümumilikdə "Nexter" şirkəti Fransa ordusunun istifadəsində olan əsas dəniz, quru və hava vasitələrində istifadə edilən silah sistemlərinin və onların sursatlarının əksəriyyətini tədarük etməklə eyni zamanda dünya silah bazarında 20-155 millimetr top və mərmilərin ən böyük istehsalçılarından biri hesab edilir. Yeri gəlmişkən, Azərbaycan Hərbi Dəniz Qüvvələri üçün "Naval" şirkəti ilə birgə inşa edilən OPV-90 gəmisinin silahlanmasında "Nexter" məhsulu olan NARWHAL məsafədən idarəolunan silah modulu da yer alır. "Nexter" şirkətinin Qafqazda məhz Azərbaycana maraq göstərməsi həm də rəsmi Bakının KTMT və NATO ilə normal münasibətləri və şəffaf siyasi mövqeyi, mövcud istehsal potensialı, idxal-ixrac imkanları, xammal bazası, alıcılıq və sərmayə qabiliyyəti və digər bu kimi vacib amillərlə sıx bağlıdır. Azərbaycan isə, təbii ki, "Nexter" kimi nəhəng bir şirkətin silahların layihələndirilməsi, inkişaf etdirilməsi və istehsalı sahəsində təcrübəsindən yararlanmaqla, müasir təcrübə əldə etməklə, cəlb olunduğu münaqişədə tələb olunan yeni silah və sursatları əldə etməklə bərabər onların istehsal və ixracında yaxından iştirak etməkdə maraqlıdır. Bununla yanaşı o da məlumdur ki, Azərbaycan Fransanın "MBDA Systems" şirkətinin ölkəmizə ASTER 30 SAMP/T və VL "Mica" hava hücumundan müdafiə sistemlərinin tədarükü üçün danışıqları yekunlaşdırıb. Fransa dövləti bu müdafiə sistemlərinin Azərbaycana satılmasına icazə verib. Bu, Azərbaycanın ciddi diplomatik-hərbi nailiyyəti hesab edilir. Çünki ilk dəfədir ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Qərb ölkəsi, eyni zamanda Minsk Qrupuna həmsədrlik edən Avropa nəhəngi Fransa Azərbaycana, müdafiə təyinatlı da olsa, müasir silah sistemlərinin satılmasına razılıq verib. Məhz bu məqam da Ermənistanda şok effekti yaradıb.

O da bəlli faktdır ki, Almaniyanın "Rheinmetall" hərbi sənaye korporasiyası da Azərbaycanla əməkdaşlıq barədə danışıqlar apardığını elan edib. "Rheinmetall" korporasiyası müxtəlif tipli ağır və yüngül zirehli döyüş texnikası, iriçaplı artilleriya sistemləri, minaatanlar və müxtəlif digər silahlar istehsal edir. Bütün bunlar onu göstərir ki, Azərbaycan artıq inkişaf etmiş Qərb dövlətlərindən silah sistemlərinin alınmasını uğurla həyata keçirir. Təbii ki, bu hal, Dağlıq Qarabağ münaqişəsinin həlli hərbi müstəviyə keçəcəyi təqdirdə, Azərbaycanın daha böyük üstünlüyə malik olmasına gətirib çıxarır. Onu da qeyd edək ki, Ermənistan zaman-zaman Azərbaycana silah satan ölkələri şantaj etməyə çalışıb. Bura İtaliya və Fransa, hətta ölkəmizə "Dana" özüyeriyən artilleriya sistemlərini və RM-70 "Vampir" reaktiv yaylım atəşi sistemlərini satan Çexiya da daxildir. Azərbaycana silah satmağa görə Ermənistanın şantajına ən çox məruz qalan ölkələr sırasına Belarus və Rusiya da daxildir. Amma bu şantajlar heç bir nəticə verməyib. Əksinə, İtaliya göstərir ki, Azərbaycanla əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. Perspektivdə Azərbaycanın hətta ABŞ-dan da hərbi məhsullar, o cümlədən təyyarələr alması istisna olunmur. Qeyd olunan xüsusda daha əvvəl rus ekspertlər tətrifindən maraqlı açıqlamalar da verilib. Məsələn, rusiyalı hərbi politoloq Pavel Felqenhauer bu xüsusda bildirib: "Azərbaycanın böyük imkanları var və o, istədiyi silahı əldə edir. Ermənistana isə Rusiyadan başqa heç bir ölkə kreditlə silah verməz. Azərbaycan, misal üçün, Türkiyədən F-16 döyüş təyyarələri ala bilər. Bu təyyarələri Türkiyə və ABŞ birgə istehsal edir, o cümlədən ixrac edirlər.

Təbii ki, bu təyyarələrin Azərbaycana satılması üçün ABŞ-ın razılığı olmalıdır. Düşünürəm ki, Vaşinqton F-16-ların Azərbaycana satılmasına razılıq verəcək". Belə vəziyyətdə daha bir maraqlı açıqlama isə hərbi ekspert Aleksandr Şatrovskidən gəlib. O, Azərbaycan ordusunun ixtiyarında F-16 döyüş təyyarələri ilə yanaşı, Qərbin digər mühüm qırıcısı sayılan F-35-lərin də ola biləcəyini istisna etmir. Onun sözlərinə görə, prezident Rəcəb Tayyip Ərdoğan amerikalı həmkarı Donald Trampla razılaşsa, o zaman F-35 proqramına Azərbaycan da qoşula bilər. Hər halda, baş verənlər Azərbaycanın getdikcə daha güclü aviasiyaya sahib olduğunu göstərir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 11 məntəqədə səsvermənin ləğv edildiyi dairədə ümumi nəticələrə təsir ehtimalı - 60-cı...

## *İsmayıl Ağayev: "Salyanda elə məntəqələr var ki, onlarda bu ləğv baş versəydi, hansısa dəyişiklikdən danışmağa dəyərdi"*

**Mərkəzi Seçki Komissiyasının (MSK) son iclasında fevralın 9-da Milli Məclisə keçirilən seçkilərlə əlaqədar 60 saylı Salyan-Neftçala seçki dairəsi ilə bağlı müraciətə baxılıb. İclasda bildirilib ki, müraciətdə həmin dairə üzrə namizədlər Aytən Qurbanova və Kamil Musəvi bir sıra seçki məntəqələrində seçki prosesinin pozulduğu iddia ediblər.**

MSK üzvü Baxşeyis Əsgərov bildirib ki, araşdırmalar zamanı qeyd olunan pozuntu halları 4, 5, 8 və 13, 15, 23, 27, 32, 35, 37 və 39 saylı seçki məntəqələrində öz əksini tapıb. B.Əsgərov qeyd edib ki, həmin seçki məntəqələrində seçicilərin iradəsinə təsir edəcək hallar müşahidə olunub. O, həmin məntəqələrdə səsvermənin nəticələrinin ləğv olunmasını təklif edib. Təklif səsə qoyularaq qəbul olunub. Qeyd edək ki, həmin dairə üzrə lider namizəd Fəzail Ağamalıdır.

11 məntəqə, hər halda, az seçici sayı etmir. Bunun həmin dairənin ümumi nəticələrinə təsiri ola bilərmi?

Ötən seçkilərdə sözügedən dairədən deputatlığa namizəd olan və bölgəni yaxşı tanıyan Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev "Bakı-Xəbər"ə açıqlamasında ilk öncə bizim qəzetə təşəkkürünü bildirdi: "Mən seçki ilə bağlı sizin TV formatında hazırladığınız debatları izləyirəm. Çox təşəkkür edirəm ki, elə rəngarəng verilişlər təşkil edirsiniz. Bu məsələyə gəldikdə isə, Seçki Məcəlləsinin tələblərinə görə, məntəqələrin beşdə ikisində seçkinin nəticələri ləğv olunursa, həmin dairənin ümumi nəticələrinin ləğvi baş tutur. Burada cəmi 11 məntəqədə ləğv edilib. Sizin dediyiniz məntəqələrin sayının çoxluğuna baxmayın.

Mən onları yaxşı tanıyıram. Elə kənd var ki, cəmi 150 nəfər səs verib. Onun nəticəsinin ləğvi ümumi nəticəyə elə bir ciddi təsir etməz. Salyanda elə məntəqələr var ki, onlarda bu ləğv baş versəydi, hansısa dəyişiklikdən danışmağa dəyərdi. Məsələn, Qarabağlar, Kərimbəyli, Xalacda olan məntəqələri nəzərdə tuturam. Belə olmayıbsa, həmin dairənin lider namizədi elə Fəzail müəllim də qalacaq. Mən yalnız bu dairəni nəzərdə tutmuram.




**Ümumən prosesin tam şəffaf olması üçün nəticələri ləğv edilən məntəqələrin məsul şəxslərini cəzalandırmaq gərəkdir. Bir neçə məntəqənin nəticəsinin ləğv olunması heç də bütün seçkiyə olan münasibəti dəyişmir. 60 saylı dairədə ciddi mübarizə gedib. Biz bunu izləmişik. Ancaq nəticələrin dəyişəcəyinə inanmıram".**

***Məhəmmədəli QƏRİBLİ***

# İslam inqilabının 41 illik tarixində İranda seçici fəallığının ən aşağı olduğu seçki - nə baş verir...

## *Cahandar Bayoğlu: "Burada ABŞ və Qərbin sanksiyalarının da böyük rolu var"*

**İranda 11-ci parlament və Ekspertlər Şurasının 5-ci dövri seçkilərində seçicilərin iştirakı 42,5 faiz olub. Bunu İranın Daxili İşlər naziri Əbdülrza Rəhmani mətbuat konfransında deyib. Ə.Rəhmaninin sözlərinə görə, ümumilikdə, 24,5 milyon nəfər (24 512 404 nəfər) seçkilərdə iştirak edib. O əlavə edib ki, seçici fəallığında 48%-i qadın, 52%-i kişi olub.**

İranın Daxili İşlər naziri səsvermə hüququna malik şəxslərin 57,9 milyon nəfər olduğunu və onun 2,93 milyon nəfərinin ilk dəfə səsvermədə iştirak etdiyini deyib.

Rəhmaninin sözlərinə görə, parlament seçkilərində 5 233 nəfər, Ekspertlər Şurasının dövri seçkilərində 53 nəfər mübarizə aparıb. Ölkədə prezident və parlament seçkilərində siyasi mübarizə, əsasən, siyasi arenanın iki böyük qüvvəsi - mühafizəkarlar və islahatçılar arasında aparılır. Bu il seçkilərdə mühafizəkarlar parlamentdə yerlərin daha çoxunu qazanıblar. Əslində, bu vəziyyət gözlənilən idi. Prezident Həsən Ruhaninin rəhbərlik etdiyi islahatçılar Qərblə danışıqlar apararaq sanksiyaları aradan qaldırmağa çalışdılar. Nəticədə İran daha sərt sanksiyalarla üzləşdi ki, bu da ölkədəki sosial-iqtisadi vəziyyətin ağırlaşması ilə nəticələndi. Mühafizəkarlar isə hər zaman ABŞ başda olmaqla, Qərblə yumşaq danışmağın əleyhinə olublar. İranın Ali rəhbəri Ayətullah Əli Xamneyi 2015-ci ildə Qərblə danışıqlara başlamaq istəyən Prezident H.Ruhaniyə ABŞ-a inanmaq olmaz, deyərək xəbərdarlıq edib. Çox yox, düz 2 il keçəndən sonra zaman Ali rəhbərin haqlı olduğunu göstərdi. Rəsmi Vaşinqton "İranın nüvə proqramının məhdudlaşdırılması haqqında" sazişə imza atsa da, üzərinə götürdüyü öhdəliyi yerinə yetirmədi və sazişdən çıxdığını bəyan etdi. Bu azmış kimi, ABŞ Prezidenti Donald Tramp İrana qarşı iqtisadi sanksiyaları daha da sərtləşdirdi. Bütün diplomatik səylərə baxmayaraq, H.Ruhani hökuməti sanksiyaları ortadan qaldıra bilmədi. Bütün bunların nəticəsi olaraq İran ictimaiyyəti parlament seçkilərində mühafizəkar düşərgənin nümayəndələrinə daha çox səs verdi.

Ən maraqlısı budur ki, bu, İslam inqilabının 41 illik tarixində İranda seçici fəallığının ən aşağı olduğu seçki kimi yadda qalıb. Bunun səbəbi nə ilə izah edilə bilər?

Yeni yaradılan Turan Partiyasının sədri Cahandar Bayoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu nəticə doğrudan da diqqətçəkəndir: "Səbəbini onunla izah etmək olar ki, İran xalqı artıq oradakı dini idarəetməni qəbul etmək istəmir. İranı idarə edən rejim get-gedə nüfuzunu itirir. Daxildəki qüvvələr demokratiya, açılım istəyirlər. Bir müddət əvvəl İranda baş verən narazılıqların fonunda cərəyan edən hadisələri biz gördük. Xalqın idarəetməyə münasibəti özünü orada daha qabarıq göstərdi. Həmin parametr özünü seçkidəki aktivlikdə də göstərir. Burada ABŞ və Qərbin sanksiyalarının da böyük rolu var. Bunun nəticəsində xalqın iqtisadi vəziyyəti pisləşib, maddi rifah halı aşağı düşüb. Sadə əhali seçici deməkdir. Onlar hesab edirlər ki, ölkəni bu vəziyyətə düzgün olmayan idarəetmə, yəni ruhani rejimi salıb. Bu səbəbdən də seçkiləri boykot edirlər, getmirlər. Seçkidə iştirak edənlərin belə 20 faizi də rejimi istəmir. Deməli, belə çıxır ki, İrandakı teokratik rejimin 20 faizə yaxın səsvermə hüququ olan tərəfdarı var. Hesab edirəm ki, bu göstərici gələcəkdə daha da artacaq. Çünki İranda ümumən vəziyyət getgedə pisləşir. Son parlament seçkiləri dindar rejimi silkələmiş oldu".



***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanın artan logistika imkanları Avropada getdikcə daha çox diqqət cəlb etməkdədir. Elə bu səbəbdəndir ki, qeyd edilən istiqamətdə Azərbaycanla əməkdaşlıq edən Avropa dövlət və şirkətlərinin sayı getdikcə artır.**

# Bakı Dəniz Limanı ilə Genuya limanı saziş imzaladı - Azərbaycanın İtaliya ilə yeni strategiyası hərəkətə başladı

Xüsusən də Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşasından sonra bu hal özünü daha qabarıq şəkildə büruzə verir. Artıq Azərbaycanla sözügedən sahədə əməkdaşlığa hazırlaşan Avropa ölkələri sırasına İtaliya da qoşulur. Belə ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı İtaliyanın Trieste və Qenuya limanları ilə Anlaşma Memorandumu imzalayıb.

Məlumata görə, imzalanma mərasimi Romada keçirilən Azərbaycan-İtaliya biznes forumu çərçivəsində baş tutub. İmzalanan sənədlərə əsasən, limanlar Çinlə Avropa arasında mövcud olan ticarət dövriyyəsindən birgə bəhrələnəcək, innovasiyaların, qabaqcıl texnologiyaların, əməliyyat məsələləri üzrə biliklərin mübadiləsini həyata keçirəcəklər. Onu da bildirək ki, İtaliyanın ən böyük limanı sayılan Trieste limanı Çin, Uzaq Şərq, Sinqapur və Malayziya kimi ölkələr üçün Avropanın giriş qapısı sayılır. Hər ay buradan 400 qatarla Almaniya, Avstriya, Çexiya, Macarıstan və İsveçrəyə yüklər daşınır. Trieste limanının illik yük dövriyyəsi 70 milyon tona yaxındır.

Həmçinin, Qenuya limanı da İtaliyanın ən qədim limanlarından biridir və Avropa ilə Çin arasında ticarət əlaqələrində xüsusi əhəmiyyətə malikdir. Keçən il liman 3 milyon konteyner ötürüb və 5 milyona yaxın sərnişinə xidmət göstərib. İtaliyaya qədər isə artıq bir sıra Avropa ölkələri Azərbaycanla müvafiq sazişlər imzalayıb. Məsələn, bir müddət əvvəl Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Avstriyanın "ÖBB Rail Cargo Group"u və Niderlandın "Cabooter Group"u ilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu vasitəsilə Avropadan Orta Asiyaya və Çinə yük daşımalarının gücləndirilməsi və genişləndirilməsi məqsədilə saziş imzalayıb. Sazişə əsasən, tərəflər Avropada Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu təşviq edəcək və Avropadakı mövcud yük şəbəkələri, eyni zamanda logistika mərkəzləri arasındakı əlaqələri gücləndirəcəklər. Avstriyanın Nəqliyyat, İnnovasiya və Texnologiya Federal naziri Andreas Reyhard bildirib ki, imzalanan saziş "ÖBB Rail Cargo Group"un Orta Asiya və Çinə doğru genişlənməsinin yeni bir strateji təşəbbüsüdür:"Bakı Limanı isə bu təşəbbüsün inkişafında əsas rol oynayacaq. Qısa zaman kəsiyində sözügedən marşrutun yüklərin daşınması vaxtı və həcmi baxımından çox səmərəli olacağını gözləyirik". Qeyd edək ki, Avstriyanın "ÖBB Rail Cargo Group"u ilə imzalanmış saziş Qərbdən Şərqə doğru Avropanın ən mühüm nəqliyyat qovşaqlarından olan Niderlandın Venlo şəhərindən və Almaniyadan Türkiyəyə, Azərbaycana, Orta Asiyaya və daha sonra isə Çinə qədər uzanacaq nəqliyyat dəhlizinin genişləndirilməsində mühüm mərhələdir.



Ümumiyyətlə, Avrasiya qitəsinin mərkəzində yerləşən Bakı Limanı Avropa İttifaqı, Orta Asiya və Çin arasında təbii körpü rolunu oynayır. Son 10 ildə Avropa İttifaqı ölkələrindən Çinə ixrac üç dəfə artıb və bu da öz növbəsində Çini Avropa İttifaqının ikinci ən böyük ticarət tərəfdaşı edir, eyni zamanda Bakı Limanı və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, eləcə də "ÖBB Rail Cargo Group" və "Cabooter Group" kimi Avropanın aparıcı nəqliyyat və logistika şirkətləri üçün də geniş imkanlar yaradır. Avropada bir çox filialı, 8 500 nəfər işçi qüvvəsi və illik 2,3 milyard avro dəyərində dövriyyəsi olan "ÖBB Rail Cargo Group" Avropanın aparıcı dəmir yolu logistika şirkətlərindən biridir. Avropada və Asiyadan kənarda, ölkə daxilində geniş logistika şəbəkəsini idarə edir. Yeri gəlmişkən qeyd edək ki, elə bu günlərdə "Azərbaycan Dəmir Yolları" QSC də Slovakiyanın aparıcı dəmir yolu və logistika şirkəti olan "Metrans"la saziş imzalayıb. Xatırladaq ki, "Metrans" Hamburq limanını idarə edən Almaniyanın "HHLA" nəqliyyat və logistika şirkətinə məxsusdur. "Metrans" konteynerlə yükdaşımalar və logistika xidməti göstərən beynəlxalq dəmir yolu şirkətidir. Bu şirkət Avropanın ən böyük dəmir yolu və terminal şəbəkəsinə malikdir. Şirkət Avropa qitəsində, əsasən Çexiya, Slovakiya, Macarıstan, Almaniya, Niderland, Avstriya, Belçika, Sloveniya, Polşa və İtaliya ərazisində dəmir yolu ilə yükdaşıma, həmçinin Almaniya, Niderland, İtaliya və Xorvatiya limanlarından konteyner yüklərinin Avropa qitəsinin daxilində nəql olunması xidmətləri göstərir. "Metrans" və "Azərbaycan Dəmir Yolları" QSC arasında əməkdaşlıq isə məhz Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə həyata keçiriləcək.

**Bütün bunlar o deməkdir ki, Avropanın aparıcı dəmir yolu və logistika şirkətləri ilə əməkdaşlıq Azərbaycandan tranzit keçməklə qitədən Orta Asiya və Çinə, həmçinin əks istiqamətdə konteyner daşımalarının həcminin artırılmasına təkan verəcək. Bu isə tranzitdən Azərbaycanın böyük həcmdə gəlir əldə etməsi deməkdir. İndinin özündə də Avropadan Asiyaya, Asiyadan Avropaya daşınan yüklərin Bakı limanı üzərindən həyata keçirilməsi ildən-ilə sürətlə artır. Amma yeni müqavilələrlə bu həcm daha da çoxalacaq.**

*Ramil QULİYEV*

# Azərbaycanda koronavirusla bağlı yayılan səs yazılarının arxasında kütləvi təxribat motivi...

***Azər Həsrət:** "Sosial şəbəkələrdə bu məlumatları yayanlar Azərbaycanın informasiya təhlükəsizliyini sınağa çəkmək istəyən düşmən qüvvələrdir"*

**Yenə təxribatçılar "sükan arxasında"dır, yenə də insanları əndişələndirən, təşvişə salan qorxulu "səslər" yuxumuza haram qatıb, rahatlığımızı pozub. Çin virusunun (koronavirus) İranda yayıldığı və artıq ölü sayının 8-i keçdiyi ilə bağlı xəbərlər yayılan kimi "WhatsApp", "Facebook" "qəhrəmanları" da iş başına keçdilər.**

Fevralın 23-dən 24-nə keçən gecə, demək olar ki, bir çox insanın "WhatsApp"ına naməlum insanların səsilə "Azərbaycanda da koronavirus yayılıb", "Koronavirus Azərbaycanda da can aldı" kimi mesajlar yayılıb. Sosial şəbəkələrdə koronovirusa yoluxmuş şəxslərin Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilməsi barədə səs yazılarının yayılması əhalini təşvişə salıb.

Onu da bildirək ki, koronavirus təhlükəsindən əndişələnən şəxslər dövlət qurumlarının rəsmi qərarını, tapşırığını gözləmədən sosial şəbəkələrdə yayılan təxribatçı səs yazılarının ardınca apteklərə üz tuturlar. Sosial şəbəkələrdə yayılan məlumatlara görə, insanlar kütləvi şəkildə apteklərə gedib qoruyucu maska (respirator) və spirt alırlar.

Qeyd edək ki, Azərbaycanda müxtəlif epidemiyalar, təbii fəlakətlərlə bağlı əvvəllər də sosial şəbəkələrdə təxribatçı səs yazıları yayılıb. Məsələn, "quş qripi", "donuz qripi", təbii fəlakətlərlə bağlı yayılan səs yazılarını çoxumuz xatırlayırıq. O vaxt da məlum oldu ki, "WhatsApp" "qəhəmanları"nın xəbərdarlıqlarının heç bir əsası yoxdur, bu, hansısa qrupların maraqlarına xidmət edən təxribatdır. Bu gün koronavirusla bağlı yayılan səs yazılarının da, şübhəsiz ki, heç bir əsası yoxdur. Bu da əvvəlkilər kimi təxribatdan, insanları əndişəyə, təşvişə salmaqdan və müxtəlif işbazların biznesinə gəlir gətirməkdən başqa bir şey deyil. Əgər "koronavirus qapının ağzını kəsib" mesaji gəlirsə, onda insanların ilk üz tutduğu yer apteklər olur, qiyməti bahalaşmamış apteklərdən bütün dava-dərmanı, maskanı, spirti alıb evə daşıyırlar. Bu sirr deyil.

Siyasi şərhçi Azər Həsrət hesab edir ki, camaat "WhatsApp"dakı səslərə yox, dövlət qurumlarına inanmalıdır. "Birincisi, dövlətin bu sahəyə məsul olan strukturları bu məsələ ilə bağlı tədbir görmədi. Bu baxımdan ki, aidiyyəti dövlət strukturları əhali arasında maarifləndirmə işləri aparmalı və informasiya, məlumat boşluğu yaratmamalı idi. Təəssüflər olsun ki, o boşluq yaradıldı və müəyyən təxribatçı qruplar da bu boşluqdan sui-istifadə etdilər. Artıq bir müddətdir Çindən qaynaqlanan və hətta uzaq ölkələrə belə gedib çıxan bu virusla bağlı informasiyalar yayımlanır. Azərbaycanın Səhiyyə Nazirliyi bu istiqamətdə informasiya boşluğuna imkan yaradır. Əlbəttə, nazirlik deyə bilər ki, biz olmayan şey haqqında nə danışa bilərik və s. Amma bu virus bir epidemiya halını alıbsa və dünyanı səksəkədə saxlayırsa, gündə bir neçə dəfə bununla bağlı Azərbaycandakı vəziyyət haqqında ictimaiyyətə məlumat verilməli idi. Amma təəssüflər olsun ki, bu məlumat yetərincə verilməyib. Səhiyyə Nazirliyi Çin virusu ilə bağlı ictimaiyyəti tez-tez məlumatlandırmadığı üçün, meydana bu cür "WhatsApp" təxribatçıları, dedi-qodu yaradanlar, şayiə yayanlar çıxıblar. Əslində, buna, sadəcə, dedi-qodu yaradanlar kimi baxılmamalıdır. Sosial şəbəkələrdə bu məlumatları yayanlar Azərbaycanın informasiya təhlükəsizliyini sınağa çəkmək istəyən düşmən qüvvələrdir. Birmənalı olaraq əminəm ki, bunun arxasında bizə düşmən olan qüvvələr dayanır. Burada Ermənistan, Rusiya, İran kimi qonşu ölkələrin xüsusi xidmət orqanları, Qərb ölkələrinin də müvafiq strukturları da var".



*"Səhiyyə Nazirliyi Çin virusu ilə bağlı ictimaiyyəti tez-tez məlumatlandırmadığı üçün, meydana bu cür..."*

A.Həsrət qeyd edir ki, bu qüvvələr birlikdə də, ayrı-ayrılıqda da bu təxribatı həyata keçirə bilərlər. "Cəmiyyətdə səksəkə yaratmaq, insanları daim qorxu altında saxlamaq, ümumiyyətlə, insanların sabaha olan ümidlərini öldürmək üçün bu cür fürsətlərdən geniş istifadə edilir. Bu da təsadüfi deyil. Baxırsan ki, sosial şəbəkələrdə "bu xəbəri mətbəxdə bozbaş bişirən arvadlar uydurub yayır" kimi fikirlər yayılır.

**Bu qətiyyən belə deyil, bunun arxasında çox ciddi xüsusi xidmət orqanları dayanırlar. Bu səbəbdən də Azərbaycanın aidiyyəti dövlət qurumları uyğun addımlar atmalıdırlar ki, bundan təxribatçılar yararlanmasınlar. Şəxsən mən özüm də illərdir bu məsələlər haqqında danışıram. İllərdir bizə qarşı informasiya savaşı getdiyini və savaşda daim geridə qaldığımızı deyirik. Nəticə də o olur ki, informasiya müharibəsində önə çıxmalı olan adamların sinəsindən itələyib geri atırlar, bu işləri bacarmayanlar bizdən öndə olur" - deyə A.Həsrət vurğuladı.**

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, müğənni Manaf Ağayev Bakı Şəhər Baş Polis İdarəsinə (BŞBPİ) dəvət olunub. BŞBPİ-nin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, M.Ağayevlə profilaktik söhbət aparılaraq sərbəst buraxılıb. Müğənni hərəkətindən peşman olduğunu bildirərək üzrxahlıq edib.**

*"Bu, cəmiyyətdə polisin apardığı profilaktik tədbirlərin bir hissəsidir"*

# Polisin qanunçuluğa və mental dəyərlərə uyğun daha bir addımı - Manaf Ağayevin polisə çağırılması zəruri idi...

***Şəmsəddin Əliyev:** "Polisin bu məsələyə belə çevik reaksiya verməsinin çox mühüm əhəmiyyəti var"*




Məlumat üçün qeyd edək ki, bir müddət əvvəl ATV telekanalında yayımlanan "Ən yaxşısı" verilişində müğənni M.Ağayev qadınlar haqda zorakılığa çağırış edən fikir səsləndirib. Proqramın qonağı olan müğənni aparıcının "Qadın Manafı hansı həddə çatdırmalıdır ki, ona əl qaldırsın" sualına, müğənni düşünmədən belə cavab verib: "Mənim belə sakit görünməyimə baxmayın. Elə ola bilər ki, qadının bir kəlmə sözünə görə nəinki öldürmək, onun başını kəsə bilərəm. Mənim ailəm çox yaxşı bilir ki, bu yerdə bu sözü demək olmaz. Çünki Manaf döyər, öldürər, asar-kəsər".

M.Ağayevin bu cür açıqlaması cəmiyyətdə birmənalı qarşılanmayıb. Ən başlıcası, onun müəyyən populyarlığa malik olduğunu nəzərə alsaq, belə fikirlər səsləndirməsi çağırış xarakterli ola bilər. Bu da potensial cinayət mənbəyi yarada bilər. Nəzərə almaq lazımdır ki, Azərbaycan Şərq ölkəsidir. Hər bir ölkənin olduğu kimi, bizim də özünəməxsus mental dəyərlərimiz var. O baxımdan polis bu məsələyə çevik reaksiya verməklə bunun doğura biləcəyi fəsadları, bir növ, önlədi. Hansı ki, ya bilərəkdən, ya bilməyərəkdən kimlərsə cəmiyyətdə bundan pis örnək götürə bilər. Bu baxımdan, polisin sözügedən addımı çox yerində və cəmiyyət üçün faydalı olan bir qərardır.

Məsələyə münasibət bildirən "Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin sözlərinə görə, polisin bu məsələyə belə çevik reaksiya verməsinin çox mühüm əhəmiyyəti var: "Hesab edirəm ki, kimliyindən asılı olmayaraq, ictimai yerdə belə ifadələrin səslənməsi doğru deyil. Xüsusən də efir məkanında bu cür fikirlərin səslənməsi kimlərəsə pis nümunə ola bilər. Bu da xoşagəlməyən fəsadların yaranmasına zəmin yaradır.

Çünki belə açıqlamalar insan həyatı üçün təhlükəli sayılan fikirlərdir. Bütün hallarda, polisin onu çağırıb qanunun tələbinə uyğun olaraq tədbirlər görməsi doğru yanaşmadır. Bu, cəmiyyətdə polisin apardığı profilaktik tədbirlərin bir hissəsidir. Polis bu addımı atmaqla baş verə biləcək potensial cinayətləri önlədi. Sözügedən məsələdə hamının diqqətli olmasını cəmiyyətə göstərdi. Çünki bu kimi məsələlər çox həssas xarakterlidir. Belə açıqlamalar kimlərəsə pis örnək ola bilər. Bütün bunları polis nəzərə alıb bu addımı atmaqla baş verə biləcək mənfi fəsadların qarşısını aldı".

***Vidadi ORDAHALLI***

**Yunus Oğuz müstəqillik dövründə Azərbaycanda bədii nəsr sahəsində ardıcıl çalışan, səmərəli fəaliyyət göstərən, tarixi mövzulara dərin maraq göstərməsilə fərqlənən və öndə gedən yazıçılardan biridir. Onun 20-yə qədər nəsr əsəri işıq üzü görüb ki, onların böyük əksəriyyəti Azərbaycan və ümumtürk tarixinin aktual problemlərinə və görkəmli şəxsiyyətlərinə həsr olunub.**

# Yunus Oğuz müstəqillik dövrü Azərbaycan tarixi romançılığının yaradıcısı adlandırıldı

*Milli qürur hissinin, vətən sevgisinin təcəssümü - "Ovçu" romanı*





Belə nəticə çıxarmaq mümkündür ki, Yunus Oğuz müstəqillik dövrü Azərbaycan tarixi romanının əsas yaradıcılarından biridir. Onun yaratdığı Azərbaycan tarixi roman nümunələri böyük oxucu marağına səbəb olub, ictimai rəydə ciddi əks-səda verib. Bunu müxtəlif oxucu auditoriyasındakı rəylərdən aşkar görmək mümkündür. Bu o deməkdir ki, Yunus Oğuzun Azərbaycan tarixi mövzusunda yazdığı əsərləri müasir dövr və müasir oxucu üçün də əhəmiyyətlidir. Bu əsərlər öz tarixi soykökümüzü dərindən dərk etməyə, milli tarixi keçmişimizi daha obyektiv görməyə, tarixi simalarımıza dərindən bələd olmağa və onlara sahib çıxmağa çağıran əsərlər olduğu üçün oxucular onları sanki müasir dövr üçün verilmiş mesaj kimi qəbul edirlər. Bu onun tarixi mövzulara müraciətinin müasirliklə, müstəqillik dövrü ilə, onun idealları ilə üzvi surətdə bağlı olduğunu göstərir. Hansı mövzularda yazmasından asılı olmayaraq, hansı tarixi şəxsiyyətə müraciət etməsinə baxmayaraq, bütün hallarda bu əsərlərin ortasından qırmızı xətlə keçən ideya milli dövlətçilik, müstəqillik və azərbaycançılıqdır. Bu Yunus Oğuz yaradıcılığının aparıcı xəttidir, ana xəttidir.

Yunus Oğuzun tarixi mövzularda yazdığı əsərlər Azərbaycan qədər Türk və müsəlman dünyası üçün də əhəmiyyətlidir. Çünki, o əsərlərində tarixin elə dövrlərinə müraciət edir ki, o zamankı tarixi ərazilər bu günkü coğrafiya baxımından bir neçə dövlətin sərhədini və təleyini özündə cəmləşdirir. Ona görə Yunus Oğuzun əsərləri türk dünyasında da böyük maraq doğurur və ayrı-ayrı xalqların dilinə tərcümə olunur. Məsələn, onun Teymurləng haqqında yazdığı iki cildliyi özbək dilində çap olunub. Bu bir tərəfdən Yunus Oğuzun nailiyyəti, digər tərəfdən isə müstəqillik dövründə Azərbaycan ədəbiyyatının açdığı böyük imkanlardır. Daha dəqiq, Azərbaycan ədəbiyyatının nüfuzunun geniş dairədə qəbul olunduğunu təsdiq edən əhəmiyyətli faktdır. "Ovçu" romanı da Yunus Oğuzun yaradıcılığında indiyə qədər epizodik şəkildə qoyulan, başqa planda qaldırılan məsələləri müasirlik işığında bir araya gətirməsi və onun ən müasir dövrün hadisələri ilə əlaqələndirməyi bacarmasının nəticəsidir. "Ovçu" romanı Azərbaycan gerçəklikləri əsasında yazılıb. Bu əsərdə tarixin müxtəlif dövrlərinə işıq salınmaqla yanaşı, bizim hərb, müstəqillik tariximizin şərəfli hadisəsi olan Aprel döyüşlərindən geniş bəhs olunur. Aprel döyüşlərindən bəhs olunan məqamlarda biz o tarixin dərinliklərindən süzülüb gələn milli qürur hissinin, torpaq, Vətən, dövlət sevgisinin bədii cəhətdən mükəmməl işləndiyinin və oxucuya çatdırılmasının şahidi oluruq. Hesab edirəm ki, bu əsər onun bir növ indiyə qədərki yaradıcılığının bir çox xətlərinə yekun vurur, Azərbaycan gerçəkliyinə qayıtmaq baxımından bir az fərqli əsər kimi görsənir. Əgər indiyə qədərki əsərlərdə tarixi mövzuların nəticəsindən azərbaycançılıq, müasirlik ideyaları çıxarılırdısa, bu əsərdə konkret olaraq müasir dövrün, yaşadığımız tarixi günlərin hadisələri öz əksini tapıb ki, bu da Yunus Oğuzun yaradıcılığında yeni hadisədir. Yaxşı cəhətdir ki, o, öz tarixindən ayrılmadan tarixə yenidən qayıdıb. Bu əsər Y. Oğuzun tarixi mövzularla müasir mövzuları bir ideya ətrafında birləşdirmək bacarığının real nümunəsidir. Bu isə onun yaradıcılığının yeni keyfiyyətidir. Düşünürəm ki, bunu başlayan müəllif müasir dövr haqqında yazacağı yeni əsərlərdə bu xətti daha da dərinləşdirəcək. Bu orjinal janrı yeni-yeni əsərlərdə ortaya qoya biləcək".

***İsa HƏBİBBƏYLİ***
***AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik***

**Gənclərin kütləvi olaraq elmə gəlməsi, elmlə məşğul olması bütün elm tutumlu ölkələrdə diqqət mərkəzindədir. Azərbaycanda da dövlət səviyyəsində gənclərin elmə axın etməsinə böyük diqqət var.**

# Rektorların və institut direktorlarının elmi iş rəhbəri olması praktikası doğrudurmu...

Bu gün elmin bütün sahələri üzrə dissertantların və doktorantların çoxu çalışır ki, elmi rəhbəri yüksək vəzifə tutsun, elmi-tədqiqat institutunun direktoru, ali məktəb rektoru, millət vəkili olsun. Bunun da özünün xüsusi səbəbləri var. Bir sıra gənclər elə bilirlər ki, elmi rəhbəri rektor, direktor, prorektor, millət vəkili olarsa, o, sorğu-sualsız elmi iş müdafiə edə bilər. Yəni hər yerdə onların qarşısında "yaşıl işıq" yana bilər.

Ümumiyyətlə, hələ Sovet dövründən başlayaraq yüksək dövlət vəzifələri tutan, eləcə də ali məktəb rektorları, prorektorları və elmi-tədqiqat institutu rəhbərləri elmi rəhbərliyə meyl edirlər. Əlbəttə, kifayət qədər məşğul olan, inzibati işdə çalışan insanların işdən baş qaldırıb dissertantla, doktorantla maraqlanmağa vaxtı olmur. Azərbaycanda mövcud olan bu təcrübə özünü doğrultmur. Yəni rektor, prorektor, eləcə də elmi-tədqiqat institutlarının direktorlarının elmi rəhbər kimi görsənməsi elmə heç bir fayda vermir. Onların elmi rəhbri olduğu dissertantlar, doktorantlar daha çox əziyyət çəkirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor İdris Abbasov "Bakı-Xəbər"ə bildirdi ki, elmi rəhbər vəzifəsi çox ciddi, məsuliyyətli bir vəzifədir. İ.Abbasov hesab edir ki, vəzifəli şəxslərin elmi rəhbər olması təcrübəsi özünü doğrultmur. "Elmi rəhbər olmaq məsuliyyətini öz üzərinə götürən hər hansı bir alim, bir şəxs işin ciddiyyətini də dərk etməlidir. Elmi rəhbərliyi burada kateqoriyalara bölməyə gəlincə, təbii ki, rektor, prorektor, institut direktoru elmi rəhbərlik edə biləcəksə, bu işi boyuna götürə bilər, amma daşıdığı inzibati vəzifə buna imkan vermirsə, o bu məsuliyyətli işdən uzaq olmalıdır. Əgər söhbət real elmi rəhbər olmaqdan gedirsə, bu belə də olmalıdır. Yoxsa, adı formal olaraq elmi rəhbər kimi qeyd edilirsə, o, formal olaraq da bu vəzifəni daşıyacaq. Elmi rəhbər dissertanta, doktoranta yol göstərməli, onun dissertasiyasının planpraspektindən tutmuş, ta ki, işin icra prosesinə, ədəbiyyatlardan necə istifadə edilməsinə, araşdırma prosesində qarşıya çıxan hər hansı bir problemə görə dissertantın yanında olmağa qədər bir vəzifə daşımalıdır. Elmi rəhbər işinə təssüf ki, çox zaman barmaqarası baxılır. Bu bir ənənə halını alıb".

İ.Abbasov qeyd edir ki, bəzən bir nəfər 10-20 doktoranta, dissertanta elmi rəhbərlik edir. Onun sözlərinə görə, dissertasiyaların çoxunun qeyri-elmi olması, elmi tələblərə cavab verməməsi məhz elmi rəhbərliyin aşağı səviyyədə yerinə yetirilməsi ilə bağlıdır. "Rektor, prorektor, dekan, elmi-tədqiqat institutunun rəhbəri elmi rəhbərlik vəzifəsini icra edə bilmirlərsə, əlbəttə, geri çəkilməlidirlər. Bunu da həyata keçirmək çətin deyil. Doktorantları, dissertantları da maarifləndirmək lazımdır ki, elmi rəhbərin vəzifəsi nədən ibarətdir. Bəzən elə rektorların, akademiklərin, vəzifə sahiblərinin adını "elmi rəhbər" qoyurlar ki, müdafiə prosesində az maneə ilə üzləşsinlər. Yənu bu filankəsin doktorantı, dissertantıdır və tez müdafiə etsin. Belə hallar da çox olur. Bəzən dissertant fikirləşir ki, filan rektorun, prorektorun adını qeyd etsəm, onun nüfuzu çox olduğu üçün mənə bir söz deyən olmayacaq. Bu cür naqisliklər həddən artıq çoxdur və biz bunları düzgün dəyərləndirməliyik və bu süni problemləri aradan qaldırmağa çalışmalıyıq" - deyə İ.Abbasov qeyd etdi.



**İdris Abbasov:** *"Rektor, prorektor, dekan, elmi-tədqiqat institutunun rəhbəri elmi rəhbərlik vəzifəsini icra edə bilmirlərsə..."*

**Məhərrəm Zülfüqarlı:** *"Universitet rektorlarının, prorektorların, yaxud elmi-tədqiqat institutu direktorlarının elmi rəhbər olması təcrübəsi özünü heç cür doğrultmur"*

Professor Məhərrəm Zülfüqarlı da hesab edir ki, rektor, prorektor və elmi müəssisə rəhbərlərinin elmi rəhbər olması düzgün deyil. Onun bildirdiyinə görə, bir şəxsin məsuliyyətli bir vəzifədə işləməsi onun elmi rəhbər olmasına mane olur. Amma bəzilərinin buna baxmayaraq, elmi rəhbər olmağa iddialı olduğunu deyən M.Zülfüqarlı hesab edir ki, elmi müəssisə rəhbəri, rektor, prorektor ona tapşırılan vəzifənin icrası ilə məşğul olsa, daha yaxşı olar. "Yəqin məlumatınız var, Prezident Administrasiyası tərəfindən məmurların elmi iş müdafiə etməsinə qadağa qoyulub. Yəni vəzifədən sui-istifadə edib elmi iş müdafiə etmələrinə icazə verilmir. Amma bəziləri yenə də edirlər. Məmurların çoxu ona görə elmi iş müdafiə edirlər ki, vəzifədən çıxandan sonra hansısa kafedrada, elmi idarədə rəhbər işləsinlər, elmlə məşğul olsunlar. Bu da əsl elmlə məşğul olanlara müəyyən maneələr yaradır. Sizin mövzunuza gəlincə, tamamilə razıyam ki, bir adam məsul vəzifə daşıyırsa, onun elmi rəhbər olması düzgün deyil.

Ümumiyyətlə, universitet rektorlarının, prorektorların, yaxud elmi-tədqiqat institutu direktorlarının elmi rəhbər olması təcrübəsi özünü heç cür doğrultmur. Onlar öz işçilərini doğru-düzgün qəbul edə bilib, onların problemi ilə məşğul ola bilmirlərsə, dissertantla, doktorantla necə məşğul olacaqlar? Hesab edirəm ki, kimlərəsə rektor, prorektor, elmi müəssisə rəhbəri, millət vəkili olduğuna görə deyil, əsl elm adamı olduğu üçün doktorantın, dissertantın elmi rəhbərliyini həvalə etmək lazımdır".

**M.Zülfüqarlının qeyd etdiyinə görə, vəzifəli elmi rəhbərin doktorantına, dissertantına münasibəti yaxşıdırsa, "get rəyi özün yaz, mən qol çəkim" deyir. "Yəni müxtəlif vəzifə tutan elmi rəhbərlərin heç rəyi oxumağa, dissertasiya ilə tanış olmağa vaxtı olmayacaq. Bu da elmin səviyyəsini aşağı salır" - deyə professor Zülfüqarlı bildirdi.**

***İradə SARIYEVA***

# İndiki şərtlərlə xaricdə oxumuş uzman həkimlərimizin rayon xəstəxanalarına getməsi problemi - Sığorta Agentliyinin rəhbərinin səyləri...

**"Xaricdə tibbi təhsil alan məzunları region xəstəxanalarında işə cəlb etməyə çalışırıq. Məncə, artıq onların bəzilərində buna maraq yaranıb". Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) İdarə Heyətinin sədri Zaur Əliyev deyib.**



Onun sözlərinə görə, bəzi regionların dövlət xəstəxanalarında tibbi fakültələrin açılması üçün hökumətə təkliflər verilməsi planlaşdırılır. Hazırda bununla bağlı təhlillər aparılır.

Z.Əliyev deyib ki, Səhiyyə Nazirliyi ilə rezidenturanı bitirib bölgələrə təyinat alan həkimlərin regionlarda ən azı 3 il çalışması məsələsi ilə bağlı danışıqlar aparılır: "Bu proses hazırda Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir. Amma buna daha ciddi yanaşılmasını istəyirik".

İdarə Heyətinin sədri onu əlavə edib ki, kəndlərdə tibb məntəqələrinin vəziyyəti qənaətbəxş deyil: "Yerlərdə həkim çatışmazlığı var, avadanlıqlar istənilən səviyyədə deyil. Həkimlərin bəziləri düzgün müalicə-müayinə aparmaqda çətinlik çəkirlər. Regionlardakı həkim çatışmazlığını qısa müddətdə aradan qaldırmaq istəyirik. Xaricdə, xüsusilə Türkiyədə oxuyan tələbələri regionlara səfərbər etməyi düşünürük. Bununla bağlı onlarla danışıqlar gedir, həvəsləndirmə tədbirləri də görüləcək. Rezidenturanı bitirən tələbələrin də regionlara göndərilərək, ən azı 3 il orada işləməsini təmin etmək niyyətindəyik".

## *Adil Qeybulla: "Xaricdə tibb təhsili alan məzunları region xəstəxanalarına cəlb etmək asan deyil"*

Məlum olduğu kimi, neçə ildir bölgələrdə həkim çatışmazlığı problemi var. Nəinki xaricdə tibb təhsili alan məzunlar, paytaxtda təhsil alanlar belə, bölgələrə getmək istəmirlər. Əsasən Bakıdakı tibb ocaqlarında işləməyə üstünlük verirlər. O baxımdan indiki şəraitdə xaricdə tibbi təhsil alan məzunları region xəstəxanalarında işə cəlb etmək nə dərəcədə mümkündür?

*"Kadrlarımızın regionlar üzrə paylanması üçün onların həyat səviyyəsi, maddi durumunun kifayət qədər yüksək olması vacibdir"*

Məsələyə münasibət bildirən professor Adil Qeybullanın sözlərinə görə, xaricdə tibb təhsili alan məzunları region xəstəxanalarına cəlb etmək asan deyil. Bununla bağlı çox iş görülməlidir: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin bununla bağlı hansı mexanizmi tətbiq edəcəyini bilmək lazımdır. Ola bilsin ki, bununla bağlı hansısa həvəsləndirici güzəştlər nəzərdə tutulub. Hesab edirəm ki, bütün hallarda, bunun nə cür tətbiq ediləcəyi aydın olmalıdır. Gözləyək görək işlər necə gedir. Çünki icbari tibbi sığorta ölkədə ilk təcrübədir. Bunun necə nəticələnəcəyini indidən demək çətindir. Bu baxımdan bir müddət gözləmək lazımdır. Ümumiyyətlə, regionlarda səhiyyənin inkişafı üçün çox iş görmək lazımdır. Yəni səhiyyə bir sistem şəklini ala bilsin. Yoxsa, yenə də həkimlər Bakıda işləməyə üstünlük verəcəklər. Hazırda xeyli sayda tələbəmiz Türkiyə və Avropa ölkələrində təhsil alıb işləmək üçün Azərbaycana gəlir. Ancaq təəssüf ki, kadrlarımız əsasən Bakıda, yəni mərkəzdə cəmləşiblər. Regionlarda kadr problemi özünü daha kəskin göstərir. Kadrlarımızın regionlar üzrə paylanması üçün onların həyat səviyyəsi, maddi durumunun kifayət qədər yüksək olması vacibdir".

*Vidadi ORDAHALLI*

# Şah Mat Teatrı "İstehkam" tamaşasını təqdim edəcək




**Fevralın 27-də Müstəqil Şah Mat Teatrı Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə səhnəsində görkəmli yapon dramaturqu Kobo Abenin "İstehkam" əsəri əsasında hazırlanan eyniadlı tamaşanı tamaşaçılara təqdim edəcək.**

Şah Mat Teatrının mətbuat katibi Turan Etibaroğlu bildirib ki, səhnə əsəri Mədəniyyət Nazirliyinin dəstəyilə nümayiş etdiriləcək.

Xalq yazıçısı Elçinin tərcüməsi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Ümid Abbas, quruluşçu rəssamı Səbinə Abutalıbzadə, musiqi tərtibatçısı Aişə Həsənovadır.

Psixoloji-dram janrında hazırlanan tamaşada aktyorlar Mir Qabil Əkbərov, Azər Ayazoğlu, Əminə Cəfərova, Anar Bulud və Günel Abbas çıxış edirlər.

1 saat 15 dəqiqəlik tamaşa keçmiş silah zavodunun müdiri, psixoloji problemləri olan bir qocanın isteriya nəticəsində yaddaşını ara-sıra itirməsindən bəhs edir. Bunun səbəbini axtaran oğlu cavabsız suallarla baş-başa qalır. Tamaşa hər kəsin öz istehkamında müdafiə olunmağına baxmayaraq, hamının günahkar olduğundan bəhs edir.

*Xəbər xidməti*

# Bağ evindən oğurluq etmək istəyən yeniyetmələr tutuldu - Qubada...



**DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan verilən məlumata görə, Quba rayon sakini İsgəndər Hacıyev fevralın 19-da Rayon Polis Şöbəsinə ərizə ilə müraciət edərək, rayonun Qələdüz kəndi ərazisində yerləşən ona məxsus bağ evinə naməlum şəxslərin oğurluq məqsədilə daxil olduqları barədə məlumat verib.**

Məlumatla əlaqədar polis əməkdaşları hadisə yerində olublar. Araşdırmalar nəticəsində evə qanunsuz daxil olan şəxslər tərəfindən heç bir əşya və ya pul oğurlanmadığı məlum olub.

RPŞ-nin Cinayət Axtarış Bölməsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd olunan cinayət əməli rayonun Dağlı kənd sakini olan iki yeniyetmə tərəfindən törədildiyi məlum olub. Həmin yeniyetmələr saxlanılaraq polis şöbəsinə gətiriliblər.

Dindirilmə zamanı onlar evə oğurluq niyyəti ilə daxil olduqlarını və tutduqları əməldən peşmançılıq çəkdiklərini bildiriblər.

Faktla əlaqədar Quba RPŞ-nin İstintaq Bölməsində cinayət işləri açılıb, araşdırmalar davam etdirilir.

№ 34 (4165) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

25 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Dünya bu 11 aylıq qıza heyrandır...

Böyük Britaniyadan olan Marissa adlı körpə gur saçları ilə məşhurlaşıb. "Axşam.az" bildirir ki, 11 aylıq qız hələ dünyaya gələndə saçları ilə həkimləri təəccübləndirib.

Körpənin anası Alessandra Makkari də övladının saçının tez uzandığını deyib. Onun sözlərinə görə, əvvəllər buna fikir verməsə də, ətrafdakıların Marrisanın saçlarına heyranlıqla baxdıqlarını görüb və bundan sonra onun saçlarına müxtəlif formalar verməyə başlayıb.

**Qadın qızının adına "İnstagram" səhifəsi açaraq, çəkdiyi şəkilləri orada yerləşdirib. Balaca Marissa gözləri ilə də hər kəsin diqqtini çəkməyi bacarır.**

## Hələ belə toy olmamışdı - Hamı maskada gəldi



**Cütlüklər üçün hökumət tərəfindən kütləvi toy mərasimi təşkil olunub.**

"BBC" bildirir ki, Filippin hökuməti tərəfindən təşkil olunan mərasim sayəsində 220 cütlük ailə qurub. Bakolod şəhərində baş tutan mərasim zamanı koronavirusa qarşı tədbirlər də görülüb. Belə ki, cütlüklərin hər biri maskada olub.

## Hindistanın şimalında iki böyük qızıl yatağı tapıldı

**Hindistanın Geoloji xidməti ölkənin şimalındakı Uttar-Pradeş ştatında ehtiyatları təqribən 3 min ton qızıl olduğu təxmin edilən iki qızıl yatağı aşkar edib.**

"Trend" bildirir ki, bu, Hindistanın qızıl ehtiyatlarından 5 dəfə çoxdur. Bildirilir ki, yataqlar Sonbhadr əyalətində kəşf edilib, orada olan qızılın ümumi dəyəri isə təqribən 167 milyard dollar təşkil edə bilər. Səlahiyyətlilər bu depozitləri yaxın zamanda elektron hərraca qoymaq niyyətindədirlər.

## Elan

Şəki rayonu, Qaradağlı kənd sakini Mustafayev Elçin Nəzir oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi və maşının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Rəhimov Eldar Aslan oğluna verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Məmmədli Leyla Əflatun qızına Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Qocayeva Nailə Tanrıverdi qızının adına, Abşeron rayonu, Məmmədli kəndində yerləşən 0.03 ha torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

---

Hacıyeva Fatimə Yaqub qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## 11 milyon illik yeni növ daşlaşmış dinozavr tapıldı

**Kanadanın Alberta şəhərində 11 milyon illik yeni növ daşlaşmış dinozavr tapıldı. Kalqari Universitetinin alimi Dr. Jared Vorisin rəhbərlik etdiyi elmi heyət indiyə qədər məlum olmayan tiranozavr tipli yeni dinozavr növünün gün işığına çıxarıldığını bildirib.**

Arxeoloji qazıntılar nəticəsində tapılan tiranozavr növlərini "ölüm mələyi" adlandıran Jared Voris, bunu digər tiranozavrlardan fərqləndirən xüsusiyyətin beldən etibarən yüksəkliyinin 2,4 metr olmasıdır deyib.

## "Nar" ADA Universitetinin İT üzrə fərqlənən tələbələrinə dəstək olub

**İnformasiya texnologiyaları sahəsində ixtisaslı kadrların yetişməsinə xüsusi önəm verən "Nar" bu sahədə təhsil alan gəncləri dəstəkləməyə davam edir. ADA Universiteti ilə əməkdaşlıq çərçivəsində mobil operator İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsi tələbələrinin təhsilini dəstəkləmək üçün ADA Universitetinin Təqaüd Fonduna öz töhfəsini verib.**

Fevralın 21-də baş tutan növbəti "Akademik Mükəmməllik Günü"ndə Lütfi Zadə adına təqaüd sahiblərinin adı açıqlanıb. Qeyd edək ki, bu təqaüdə layiq görülən tələbələr bir semestrin təhsil haqqından tamamilə azad olunurlar.

Bundan başqa, "Nar" və ADA Universiteti arasında uzunmüddətli əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş istiqamətlər sırasında startap layihələrini dəstəkləyən ADA İnnovasiya Mərkəzi ilə tərəfdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər də mövcuddur.

"Nar"ın elm və təhsilin inkişafına yönəlik sosial layihələri haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,9%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.





**Qoç** - Sirri açmaq üçün məlumat aramalı, əlaqələrdən yararlanmalı, sorğu-sual etməlisiniz. Kiminsə unikallığı təxəyyülünüzü məşğul edir, amma mümkün münasibətlərin məna və perspektivlərini hələ tam anlamayıbsınız.



**Buğa** - İşlərinizin axarını günün ilk yarısında müəyyənləşdirin və nəyi nə zaman görəcəyinizə qərar verin. İşlə bağlı tərəfdaşların sayını artırmaq, dostlar və hətta qonşularla yeni işbirliyi qurmaq olar.



**Əkizlər** - İşgüzar və ya yazın münasibətləriniz olan insanlarla təmaslarda səbəb olsa belə, onları sərt tənqid etməyin. Tanıdığınız insanlar və ya iqş yoldaşlarınız mühüm qərarların gərgin axtarışında olduğub vaxtda bəxtiniz gətirəcək, çətinliklər yeni sərfəli işə çevriləcək.



**Xərçəng** - İşdə indiyədək mübhəm qalan amillər hadisələrin inkişafında əhəmiyyətli rol oynaycaq. Hərgah hansısa mövzu ilə maraqlanırsınızsa, intuisiyanıza güvənin. Səhhətinizə fikir verin.



**Şir** - Baş verə biləcək hadisələrə hazır ola bilməsəniz də, çətinlikləri cəsarətlə qarşılayın. Əminlik və qətiyyətiniz yaxın ətrafınızda olan insanlara da müsbət təsir göstərəcək. İşləri dalbadal, ideal qaydada yerinə yetirməyə çalışmayın.



**Qız** - Alınan məlumat, gələn informasiya qəfil situsiya yaradaraq tanış və mühüm predmetlə bağlı biliklərinizi artıra bilər. Şəxsi münasibətlər üçün uğurlu gündür. Lakin unutmayın ki, baş verənlər ilk baxışdan göründüyündən fərqli əhəmiyyət daşıyacaq.



**Tərəzi** - Rəqiblərlə ehtiyatlı olun, həyatınızı mürəkkəbləşdirən problemlərdən fayda əldə etməyə can atın. Çoxdan bəri təxirə salınan, yarımçıq qalan işi başa vurun. Fiziki iş üçün əlverişli gündür.



**Əqrəb** - Hadisələrin sizə gərəkli istiqamətdə spontan inkişafını da gözləmək olar. Kiçik incikliklər və qəlb yaraları emosiyalar tufanı yarada bilər. Ətrafınızdakı insanlar inadkar və yanlış mövqelərində qətiyyətlidirsə, qapını çırpmayın.



**Oxatan** - Tərəfdaşın mövqeyini nəzərə alaraq fəaliyyəti razılaşdırın. Yaşam məkanı və fəaliyyətinizdə mühüm sahələrdə harmoniya yaratmaq, nizama nail olman imkanlarını əldən verməyin.



**Oğlaq** - Lazım və vacib bildiyiniz işlərlə məşğul olun. Seçim məcburiyyəti yaranarsa, situasiyanın dərhal dəyərləndirərək təcili qərar qəbul edin. Bu gün gözləntilərin tam tərsinə olaraq rəqibləri qabaqlaya bilərsiniz.



**Dolça** - İşlə məşğul olun, ətrafınızdakı insanın sizə təzyiq və təsir göstərmələrinə imkan verməyin. Bugünkü fəaliyyətin istənilən nəticəsi maddi olmalıdır. Danışıqları rəsmiləşdirmək, yaxud da qarşı tərəfdən öhbdəlik almaq vacibdir.



**Balıqlar** - Hadisələrin emosional mahiyyəti zəifləyir, işgüzarlıq artır. Bundan yararlanmağa çalışın. Yaradıcılıq imkanlarınız yüksək səviyyədə olsa da, ətalətlə davransanız, irəliləyiş şansını qaçıra bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Pambıq kolu - şişlərə qarşı təbii məlhəm

**Pambıq kolunun toxumlarından şişlərin və burunudlaq xəstəliklərinin müalicəsi üçün məlhəm hazırlayırlar.**

"Axar.az" bildirir ki, bolqar alimləri məsləhət görürlər ki, bu bitkinin 1-2 qaşıq toza çevrilmiş və ya kökünün xırdalanmış qabığı üzərinə 1 stəkan qaynar su tökərək soyuqda süzmək və 1 gün ərzində həkim nəzarət altında içmək lazımdır. Pambıqkolu tibbi preparatlar - furasimin, furasil, furadonin və s. hasil etmək üçün istifadə edilir. Köklərinin ekstraktı qossipol preparatının tərkibinə daxil olaraq qansaxlayıcı təsirə malikdir.

Pambıq kolundan hazırlanan preparatları hamiləlik dövründə qəbul etmək olmaz. Toxumlarından alınan yağın tərkibində E vitamini çoxdur və bu yağ cinsi vəzilərin funksiyasının və yağlar mübadiləsinin pozulmasında effektli müalicə edir. Tərkibində qan təzyiqini azaldan komponent var.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.